*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*
*("Maidə" surəsi, 9-cu ayə).*

# İMAN

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

*Aprel 2012 (Cəmadiul-əvvəl) 1433) 03 (71*



# *Nəfsimə məktub...*

***Ey nəfsim! Sənə lap məəttəl qalıram! İçərisində rahatlıq olmayan bir evdə rahatlıq istəyirsən.***

***Fani olduğunu bildiyin dünyanın dadını çıxarmaq istəyirsən. Zövq və əyləncə istəyirsən hadisələrin aqibətinə baxmırsan.***

***Ey nəfs! Niyə insanların qarşısında təqvalı, saf və iffətli görünməklə məşğul olub qaranlığa bürünüb insanların***

***ətraflarına çəkildikləri vaxt sanki səni görmürmüş kimi ALLAHa üsyan etməyə cürət edirsən.***

***Ey nəfs! Sənə nə olur, sanki ondan əmin olmusan kimi dün-yaya güvənirsən. Əvvəlkilərin vəziyyətlərini xatırlamırsanmı? Onlar həyatlarını dünyaya hədiyyə etmişlər idilər, birdə baxdılar ki dünya onlara əcəllərini gətirmiş və nemətləri atəşə çevirmiş.***

***Bilmirsənmi ki, dünya hiyləçidir, məqsədləri və vəziyyətləri dəyişdirəndir. Bu halda ona necə güvənərsən? Hər hansı bir anda ölüm sənə hücum edib səni içində olduğun şeydən çıxara bilər və səni bir diyardan onun üçün hazırlanmadığın başqa bir diyara aparar. Orada sənin vəziyyətin nə olar ey nəfs!***

***Ey nəfs! Cənnəti istədiyini iddia edirsən amma onun üçün heç çalışmadın. Atəşdən qorxduğunu iddia edirsən amma ondan heç qaçmadın! Əgər Cənnətə girsən orada nemətləndiriləcəyini, əgər Cəhənnəmə girsən orada əzaba uğrayacağını öyrənmədinmi?***

***Ey nəfs! Nədən səni hər itaətə məcbur etdiyimdə tənbəlləşib məndən qaçır, yorğunluq və məşəqqəti bəhanə edir bir günah gördüyündə isə ona qaçırsan?***

***Ey nəfs! Mənə doğrunu söylə! Nə istəyirsən? Xoşbəxtlikmi, bədbəxtlikmi? Rifahmı, əzabmı? Ey nəfs! Sənə and içərəm ki, xoşbəxtlik və rifah ancaq ALLAHa itaətdə vardır. Bədbəxtlik və əzab isə günahlarda vardır. Mənimlə razısanmı? Səndən ümid etdiyim şey budur...***

# HƏZRƏT FATİMƏ (S.Ə)



**Həqiqətən də Biz sənə kövsər əta etdik…**

Fatimə (s.ə) Zöhreyi-Zəhradır ki, ilahi əzəmətin nurundan yaranıb. Onun vücudu ilə səma və yer üzü nurlanmış, mələklər səcdəyə düşüb Həzrət Haqqdan o nurun əzəməti haqqında soruşmuşlar.

Fatimə (s.ə) Həvrayi-insiyyədir (insan cildində bir hüriyyədir) ki, Allah Əbül-bəşər Adəmin (s.ə) xilqətindən öncə onu öz nunundan yaradıb, ərşin sütunun altında ona yer verib. Orada daim Allaha təsbih, təqdis, təhlil və təhmid etməklə məşğul olub.

Fatimə (s.ə) elə böyük bir xanımdır ki, Allah-taala onun atasını, həyat yoldaşını, iki övladı- Həsən və Hüseynin (s.ə) nurunu yaratmış, onların vilayətini mələklərə və sair məxluqlara təqdim etmişdir. Qəbul edənlər Allahın müqərrəblərindən, inkar edənlər isə kafirlərdən hesab olunub.

Fatimə (s.ə) elə böyük bir xanımdır ki, Allah-taala onun, atasının, həyat yoldaşının, Həsən Hüseyin (ələyhiməs-səlam) və digər övladlarının nuru, başqalarından - hətta nəbilərin övlayaların, övsiyaların nurundan öncə, şərəfli, üstün yaranmış, müqəddəs və qədimdir. Onların nuru səmaya, dağlara yayıldı və hər tərəfi bürüdü.

Fatimə (s.ə) seçilən böyük bir xanımdır ki, atası, həyat yoldaşı, iki övladı- Həsən və Hüseynlə (s.ə) Allahın ərşı altında həzrət Adəm xəlq olunmazdan öncə “Alin” məqamında Allaha təsbih etməklə məşğul olmuş və mələklər də onlara qoşulmuşlar.

Fatimə (s.ə) yeganə qızdır ki, atası Rəsulallah (s), Allaha ilk iman gətirən və ilk peyğəmbərdir ki, peyğəmbərlərdən əhd alındıqdan sonra “bəli” dedi: “Yaranmışların ilki və yaranan hər kəsin ağasıdır”.

Allah-taala ondan yaxşısını yaratmayıb. Onun şənində buyurub: “Sən olmasaydın, dünyanı yaratmazdım”.

Fatimə (s.ə) yeganə qızdır ki, Xədiceyi-Kübra əleyha-salam kimi anası var. Həzrət Haqq dönə-dönə onunla mələklərin yanında fəxr edərdi. Peyğəmbər (s) meracdan qayıtdıqdan sonra Cəbrayıl (ə) Allahın və özünün salamını ona çatdırardı. Allah-taala qadınlar arasında dörd nəfəri seçib ki, cənnət onlara müştaqdır. Xədicə (ələyha salam) də onlardan biridir.

Fatimə (s.ə) bir Seyyidədir ki, onun nütfəsi Cəbrailin (ə) Allah-taala tərəfindən Peyğəmbər üçün gətirdiyi hədiyyədən - behişt meyvəsindən bağlanıb.

Fatimə (ələyha salam) bir Mühəddisədir ki, anasının bətnində olanda anası Xədicə (s.ə) ilə danışardı, rəva olmayan sözlərin müqabilində onu səbrə və dözümə dəvət edər, sakitləşdirərdi...

Fatimə (s.ə) bir Tahirə və Mütəhhərədir ki, anası onu bətnində daşıyarkən cənnət qadınları və hurilər ona xidmət etdiyi halda dünyaya pak olaraq qədəm



qoydu. Kəlmeyi-şəhadətə dil açdı. Həyat yoldaşının vəsi, övladlarının seyid (imam) olmasına şəhadət verdi. Onun cəlalının nuru təkcə Məkkəni deyil bütün şərq və qərbi bürüdü. Səmada parlaq bir nur yarandı ki, mələklər onun bənzərini görməmişdi. Cənnət əhli, mələkut aləmi onun doğumunu bir-birlərinə müjdə verdilər. Nəhayət cənnət qadınları onu Tahirə, Mütəhhərə və Zəkiyyə kimi onun və (onunla bərabər dünyaya gələcək) mübarək nəslinin qədəmini təbriklərlə alqışlayıb Xədicəyə təqdim etdilər.

O, hər gün hər ay adi şəkildə deyil, sürətlə böyüyürdü.

Fatimə (s.ə) yeganə xanımdır ki, Allah-taala ona Öz adlarından əta edib onu "Fatimə" adlandırdı. Dostlarına kömək edəcəyi üçün, göylərdə "Mənsurə", tərəfdarlarını oddan qurtaracağı üçün yerdə "Fatimə" adlanıb. Ona deyilən ləqəb və künyələrin hər biri öz yerində onun zahiri və batini kamalına işarədir.

Fatimə (s.ə) insan cildində bir Huri idi. Qadınlara xas olan (aylıq adət kimi) məsələlərdən pak olduğu üçün "Bətul" və ya "Tahirə" adlandı.

Rəsulallah (s) Fatiməyə (s.ə) elə bir şəkildə xüsusi diqqət yetirirdi ki, hər vaxt səfərə getsəydi, vidalaşdığı sonuncu, səfərdən qayıtdıqda ilk görüşdüyü şəxs Fatimə (ə.s) olardı. Həmişə onun dərdini çəkər, ondan nigaran idi. Allah-taala Fatiməni (ə.s) mənəvi əzəmətinə görə bütün qadınlar arasından seçdi. Onun elə bir sevimlisi oldu ki, həyatında və ölümündə onunla birgə olmaq və atasına, həyat yoldaşına, övladlarına salavat və rəhmət göndərməyi mələklərdən bir qrupuna tapşırdı.

Fatimə (s.ə) elə böyük bir şəxsiyyətdir ki, Cəbrayıl (ə) onun təvəllüdünü Rəsuləllaha (s) müjdə verdi.

Fatimə (s.ə) Həvrayi-insiyyədir ki, Rəsulə̈llah (s) hər zaman cənnətə müştaq olsaydı, onu iyləyər və buyurardı: "Tuba ağacının iyini ondan duyuram".

Fatimə (s.ə) ilahinin nurunun cilvəsi, Onun cəlal və camalıdır. Onun qəzəbi Allahın qəzəbi, razılığı Onun razılığıdır. Rəsulə̈llah (s) buyurub: "Onun nuru bizim nurumuzdandır". Həmçinin buyurub: "O məndən, mən də ondanam. Hər kəs ona salavat və rəhmət göndərsə, Allah-taala onu bağışlayar və cənnətdə mənə qovuşdurar."

## *Fatimənin (ə.s) elmi məqamı*




Övliyaların bir şəxsə bəslədikləri məhəbbət sadə bir məhəbbət deyil. Yəqin ki,o məhəbbətin özəyi elm, iman və təqva ilə qaynaqlanır.

Peyğəmbərin (s) öz qızına məhəbbəti dünya xanımlarının nümunəsi olan o böyük xanımın imtiyazlarının dəlilidir.

Peyğəmbər (s) Fatiməni (ə.s) "dünya xanımlarının ən üstünü" və ya "cənnət xanımlarının ən üstünü""Razılığı Allah razılığı, qəzəbi Allah qəzəbi"adlandırırsa, demək ki, o kəlamların dəlili var. Bu kəlamlarla onun elmi baxımdan da dünya xanımlarının önündə durması məlum olur. Elm də yüksək məqamı olmayan şəxsin ola bilərmi?!

İslami mənbələrdə bir sıra faktlar bir daha o xanımın yüksək elmi məqamını açıb göstərir.

Məsələn: Əbunəim, peyğəmbərə (s) bir hədis istinad edir: Bir gün, peyğəmbər əshaba buyurdu: "Qadın üçün daha çox nə xeyirlidir?"

Əshab ona, nə cavab verəcəklərini bilmədi.

Əli (ə), Fatimənin yanına gəlib məsələni ona çatdırdı. İslamın xanımı buyurdu: "Nə üçün demədin - onlar üçün ən xeyirli odur ki, (yad) kişiləri, (yad) kişilər də onları görməsin?!"

Əli (ə) qayıdıb o cavabı peyğəmbərə (s) dedi. Peyğəmbər (s) buyurdu: "Onu sənə kim öyrətdi?"

Ərz etdi: "Fatimə (s)". Peyğəmbər (s) buyurdu: "Həqiqətən də o, mənim bir parçamdır".

Hədisdən məlum olur ki, "mənim bir parçamdır" sözündə cismani cəhət deyil, peyğəmbərin (s) ruhunun, elminin, əxlaqının, iman və fəzilətinin bir parçası nəzərdə tutulur.

"Müsnədi-Əhməd" kitabı Ümmi Sələməyə ( yaxud Ümmi Sələmiyə) istinadən yazır:

Fatimə (ə.s) ölümcül xəstələndikdə mən ona xidmət edirdim. Bir gün onun halını bütün günlərkindən daha yaxşı gördüm. Əli (ə), bir iş arxasınca getmişdi. Fatimə (ə.s) buyurdu:

"Qüsl etməyim üçün mənə su gətir." Su gətirdim və qüsl etdi. Onun qüslündən daha yaxşısı görməmişdim. Sonra buyurdu: " Mənim üçün təzə paltarlar gətir." Paltarları gətirdim və ona verdim. O, geyindi. Sonra buyurdu: "Gedirəm (uca mələkut aləminə), pak olduğum və heç kəs məni görmədiyi halda!" Bu sözü deyib dünyaya gözünü bağladı".

Bu hədisdən gözəl şəkildə anlaşılır ki, Fatimə (ə.s) hansı zaman öləcəyini bilirdi. Ölüm nişanələrinin onda olmamasına baxmayaraq, o, özünü köçməyə hazırladı. Ölüm vaxtını Allahın təlimi olmadan heç kəs bilmədiyindən məlum olur ki, ona Allahdan ilham olunurdu. Bəli, onun ruhu qeyb aləmi ilə əlaqədə idi. Səmadakı mələklər onunla danışırdı. Quranın bir çox ayələrində İmranın qızı, həzrət İsanın (ə) anası Məryəm, mələklərlə danışırdı. Fatimənin (ə.s) məqamı ondan üstün olduğu üçün onun ilk növbədə mələkərlə danışması təbiidir.

# Fatimənin (s.ə) Müshəfi nədir?

***Fatimə (s.ə) ilahi sirlərdən biridir. Onun yüksək məqamını tanımaq biz yer-əhli təbəqəsi üçün sadə iş deyil. Daha doğrusu onun həyatının bir çox məqamları biz insanlar üçün sədəf kimi açılmayıb və bizə gizlidir. Fatimənin (s.ə) müshəfi, aşıb-daşan mənəviyyatı və elmi, vəhy vasitəsi ilə ona nazil olub ki, pak məzarı pərdə arxasında qalan kimi bir sirrdir.***

***Fatimənin (s.ə) müshəfi nədir?! Nə zaman meydana çıxıb?! Orada nə barədə yazılıb?! İndi harda və kimin əlindədir?! Müəyyən qədər bu və ya bu qəbil sualların cavabını araşdırırıq:***

Fatimənin məşhur adlarından biri də Mühəddisədir. Fatimeyi-Zəhranın (s.ə) anası tərəfindən o adla adlandırmasının səbəbi haqqında imam Baqir (ə) buyurub: " Fatimə ona görə Mühəddisə adlandı ki, mələklər həmişə səmadan yerə enib İmranın qızı Məryəm kimi ona xəbər gətirirdi. Ona xitab edərək bu ayəni oxuyurdular: ... Rüku və səcdə edənlərlə birlikdə səcdə et! Fatimə (s.ə) mələklərlə, onlar da Fatiməyə (s.ə) xəbər danışardı. Bir gecə Fatimə (s.ə) onlara buyurdu: "İmranın qızı Məryəm dünya qadınlarından üstündürmü ?!" Dedilər: "Məryəm, öz zamanında qadınların böyüyü idi. Allah səni həm öz zamanında həm də onun zamanında qadınların böyüyü qərar verib. Sən əvvəldən sonadək qadınlar aləminin Seyidəsisən."

Mələklər peyğəmbərlərdən başqası ilə danışmasalar da peyğəmbərlərin dövrünə təsadüf edən dörd qadın peyğəmbər olmasala da mələklər onlarla danışıb:

1) Həzrət İsanın (ə) anası Məryəm (s.ə).

2) İmranın həyat yoldaşı, həzrət Musa (ə) və Məryəmin (s.ə) anası.

3) Həzrət İshaqın və Yəqubun anası Sara.

4) Fatimeyi-Zəhra (s.ə)

İslam peyğəmbəri (s), xəstə olarkən yataqda huşunu itirmişdi. Evin qapısı döyüldü. "Qərib bir kişiyəm və Allahın Rəsuluna sualım var. İçəri daxil olmağa icazə istəyirəm."

Fatimə (s.ə) buyurdu: Qayıt Allah sənə rəhm etsin, Allah Rəsulunun (s) halı münasib deyil. O, getdi. Sonra yenə qayıdıb qapını döyüb dedi: İçəri daxil olmağa Allahın Rəsulundan icazə istəyən bir qəribdir. Qəriblərə icazə verirlər? Birdən Rəsulullah (s) oyanıb buyurdu: " Ey Fatimə, onun kim olduğunu bilirsənmi?! Ərz etdi: "Xeyr, ya Rəsulullah! Buyurdu: " Bu, o şəxsdir ki, camaatı bir-birnə vurur, dünya ləzzətlərini aradan qaldırır. O, ölüm mələyidir. And olsun Allaha, məndən öncə heç kəsdən daxil olmaq üçün icazə almayıb və məndən sonra da almayacaq. Ona icazə ver!"

Fatimə (s.ə) buyurdu: "İçəri keç, Allah sənə rəhmət etsin!"

Ölüm mələyi bir mülayim nəsim kimi varid olub dedi: "Rəsuləllahın Əhli-beytinə (ə) salam olsun!" Bu acı hekayədə həzrət Fatimənin (s.ə) mələklərlə danışmasından onun "Mühəddisə" olduğunun şahidi oluruq."

Həzrət Fatiməyə (s.ə) məxsus "Müshəf" kitabı necə meydana gəlib?!

Fatimə (s.ə) peyğəmbərin (s) vəfatından sonra 75 və ya 95 gün yaşadı. Bu çox qısa müddət, Zəhrayi-Məziyənin (s.ə) səbr, dözüm, vilayət məqamını müdafiə etdiyi, eyni zamanda qəmqüssəli dövrünü əhatə edir. Vəhy mələyi- Cəbraili-Əmin ona nazil olur, uca atasının Allah dərgahında olan məqamı, islamın gələcək tarixi haqqında məlumatları ona ilham edirdi. Beləliklə Fatimənin (s.ə) "Müshəf"-i toplandı və məsum imamlar üçün yadigar qaldı.

İmam Sadiqdən (ə) "Fatimənin (s.ə) Müshəfi" barədə soruşdular. Cavabında uzun müddət sükut etdi ... Sonra buyurdu: " Siz, lazımlı və lazımsız şeylər haqqında soruşub təqhiqi edirsiniz. Fatimə (s.ə) Rəsulullahdan (s) sonra yetmiş beş gün yaşadı. Atasının rehləti ilə ona böyük qəm üz vermişdi. Vəhy mələyi Cibril, həmişə onun üçün nazil olur, atasının ayrılıq acısını yaxşılıqla (kədərdən uzaq, müsbət təsirlə) ona təqdim edir, onun ruhuna sakitlik bəxş edirdi. Atasının Allah dərgahındakı yüksək məqamından, də onun övladlarının üzləşdiyi gələcək hadislər haqqında məlumatı ona çatdırırdı. Əli (ə), bütün o xəbər və məlumatları yazıb, Fatimənin (s.ə) "Müshəf"-ini tərtib etdi."

İmam Sadiq (ə), başqa bir hədisdə "Fatimənin Müshəfi nədir" sualın cavabında, buyurub: Allah taala peyğəmbəri qəbzi-ruh edərkən Fatimə (ə), ondan elə bir şəkildə kədərləndi ki, o kədərin nə olduğunu Allahdan başqa heç kəs bilmirdi. Ona görə də Allah-taala onun hüznünü aradan qaldırıb onunla danışsın deyə mələk nazil etdi. Fatimə (ə) o xəbəri, Əliyə (ə) çatdırdı. Əli (ə) buyurdu: "Hər vaxt mələyi hiss edib səsini eşitsən, mənə de və məni onun sözlərindən məlumatlandır. Əmirəlmömінin (ə) onun hər eşitdiyi (sözü) yazırdı. Nəhayət yazılan söz və məlumatlardan bir "Müshəf" ərsəyə gəldi."

Hədisə əsasən bu qənaətə gəlmək olar:

1. Fatimənin (s.ə) Müshəfi, peyğəmbərin (s) rehlətindən Siddiqeyi-Kübranın (s.ə) şəhadəti arasında olan zaman fasiləsində ərsəyə gəlib.

2. Fatimənin (s.ə) Müshəfi, Cibril Əmin (ə) vasitəsi ilə Fatiməyə (s.ə) ilham olan vəhydir.

3. Fatimənin (s.ə) Müshəfi, həzrət Əlinin (ə) mübarək əli ilə yazılıb.

Əbu Bəsir deyir: İmam Baqirdən (ə) Fatimənin (s.ə) Müshəfi barədə soruşdum. Buyurdu:

"Peyğəmbərin (s) rehlətindən sonra Fatiməyə (s.ə) nazil olub.

### İmamlıq nişanəsi

***Müshəf, peyğəmbərlik və imamət sirri kimi təkcə məsum imamlara yadigar qalıb. O, Allahın yer üzündəki höccətləri arasında birindən digərinə ötürülüb və imamlıq nişanəsi sayılır. İmam Rza (ə), məsum imamın əlamətlərini sayaraq buyurub: "Fatimənin (s.ə) Müshəfi onda olacaq".***

***Çoxlu rəvayətlərdən məlum olur ki, "Came`", "Cefr" və "Fatimənin (s.ə) Müshəfi", İmamların əlində olub. (Mövzudan xaric olmamaq üçün "Came" və "Cefr" haqqında məlumatı ixtisar etdik). Münasib fürsətdə ona müraciət edir, onunla insanların elmi və fikri problemlərini həll edirdilər. Orada yazılanlar elm və biliyin dəyərli gövhərləridir. Onların təsəvvürü belə yer əhlinin zehninə sığmaz.***

# KİŞİ VƏ QADININ FƏRQLİ HÜQUQLARI

***Əziz oxucular! Hal-hazırda oxucusu olduğunuz bu yazı əsrimizin dahi alimi filosof Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai ilə alimlərdən birinin müxtəlif mövzularda sorğu-sualı və bəyan etdiyi bəzi mövzular əsasında tərtib edilmişdir.***

***İslam dünyasının fəxri Əllamə Təbatəbai 1902-ci ildə Təbrizdə anadan olmuşdur. İlk təhsilini doğma şəhəri Təbrizdə almış, daha sonra İslami elmlər mərkəzi olan Nəcəfi-əşrəfə gedərək, orada fiqh və üsuli-fiqh, sərf, nəhv, ərəb ədəbiyyatı, riyaziyyat, fəlsəfə, kəlam, irfan və təfsir sahələrində 10 il təhsil almışdır. O, 15 noyabr 1981-ci ildə vəfat etmişdir. Allah onu öz vəliləriylə həşr etsin, ona rizvanında yer versin!***

## İslamda kişi ilə qadın eyni hüquqa malikdirlərmi?

### Qadın da kişi ilə bərabər siyasət və dövlət işlərində vəzifə tuta bilərmi?

**Cavab:** İslamın yeni zühur etdiyi dövrdə dünya ictimaiyyətinin nəzərində qadına qarşı iki fikir mövcud idi:

1. Bəziləri qadını heyvanla bir sanır və onlara görə qadın cəmiyyətin üzvü hesab olunmurdu. Lakin müxtəlif işlərlə əlaqədar olaraq kölə kimi saxlanılır, istismar olunurdu. Misal üçün, nəslin artımında və sair işlərdə onlara ehtiyac duyulurdu.

2. Birinci qrupa nisbətən mədəni sayılan başqa qrupun bir fikrincə isə, qadın cəmiyyətin natamam üzvü hesab edilirdi. Qadına hətta şüursuz uşaq, yaxud bir əsir kimi baxılırdı və onun hüquqları kişilərin ixtiyarında idi.

Qadını ilk dəfə dünyada cəmiyyətin kamil üzvü sayan və onu həqiqi mənada qiymətləndirən İslam dini olmuşdur: "İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməllərini puça çıxarmaram. Sizin hamınızın xilqəti birdir."

İslam ictimai məsələlərdə qadına yalnız üç yerdə müdaxiləyə icazə verməyibdir:

1) rəhbərlik; 2) məhkəmə hakimi vəzifəsində çalışmaq; 3) müharibədə ön cəbhədə vuruşmaq. Dini mənbələrdə qeyd olunduğu bunun səbəbi qadınların emosional, kişilərin isə rasional xarakterli olmasıdır.

Bu üç vəzifə isə sırf qəti qərar və diqqətə əsaslanmalı, qəlbi hisslərdən və duyğulardan uzaq olmalıdır. Belə isə onların qadın kimi zərif mövcuda tapşırılması düzgün deyildir.

Qərb aləminin kişi və qadın üçün müştərək təlim və tərbiyə proqramları nəzərdə tutmasına baxmayaraq indiyə kimi ictimaiyyətin bu üç sahəsində qadınların tutarlı bir bal toplaya bilməmələri buna ən gözəl dəlildir. Güclü siyasətçilər, hakimlər və sərkərdələrin sırasında qadınların sayı kişilərə nisbətdə çox cüzidir. Halbuki bunun əksi tamamilə üstünlük təşkil edir (buna misal olaraq tibb bacısı, rəqqasə, rəssam, bəstəkar və kino aktrisalarını göstərmək olar).

## Nə üçün qadına düşən irs kişidən azdır?

**Cavab**: İslamda irsin bölümünə əsasən, qadına bir pay, kişiyə isə iki pay çatır. Bunun səbəbi qadının güzaran və xərcinin kişinin öhdəsinə düşməsilə əlaqədardır. Burada yenə də qadınların emosional, kişilərin isə rasional olması nəzərə alınmışdır.

İzah: Hər əsrdə yer üzünün sərvəti o əsrdə yaşayanlarındır və sonra gələn nəsillər isə onların varisi olur. Qadınla kişinin sayı həmişə fərqli olduğu üçün İslamda irsin üçdə ikisi kişiyə və üçdə biri isə qadına çatır. Bununla belə, qadının xərci kişinin öhdəsinə düşdüyü üçün o, ərinin payının yarısına şərik olur.

Deməli, qadın irsin üçdə birinə malik olsa da, onun istifadəsi zamanı yenə ona üçdə ikisi qismət olur, kişiyə isə üçdə biri çatır. Beləliklə, yalnız mülkiyyət baxımından irsin üçdə ikisi təfəkkür sahibinin, üçdə biri atifə sahibinindir, istifadəsinə gəldikdə isə, əksinə üçdə ikisi qadının, üçdə biri isə kişinindir. Bu isə ən gözəl bölgüdür.

Bundan əlavə, belə bölgünün ailənin təşkilinə mühüm faydaları vardır.

## Nə üçün talaq kişinin ixtiyarındadır?

**Cavab:** Dinin psixoloji proqramlarına əsasən, bu məsələ yenə də kişilərdə təfəkkür qüvvəsinin üstünlük təşkil etməsilə əlaqədardır (bu o deməkdir ki, qərarlarında tez hisslərə qapılmırlar). Lakin bununla belə, İslam dini qadınlara da müəyyən imtiyazlar vermişdir, məsələn, həyat qurarkən nikah zamanı bir sıra şərtlərlə kişinin ixtiyarını azalda bilər, yaxud qoyulan şərtlərin pozulması ilə boşanmaq üçün imkan qazana bilərlər.

## Nə üçün kişi bir neçə arvad ala bilər?

**Cavab:** Məlum olduğu kimi İslam neçə dəfə evlənməyi vacib etməyib və kişinin də yalnız dörd qadın almağa hüququ çatır. Bu da o vaxt mümkündür ki, onlarla ədalətlə rəftar edə bilsin. Belə bir hökmün icra olmasının şərti budur ki, bu hökm cəmiyyəti qadın azlığı

və kişi çoxluğu problemi ilə üzləşdirərək hərc-mərcliyə səbəb olmasın.

Kişilərə gəldikdə isə məsələ aydındır ki, onların hamısı bu işə qadir deyillər. Çünki yaşayış üçün ailəni evlə təmin etmək, qazanc və arvad-uşaqların xərci kişinin öhdəsinədir. Bundan əlavə ədalət də bir şərt kimi nəzərə alınmışdır. Belə isə az adam üçün bu şərait yarana bilər. Bir də ki, həmişə təbiət və xarici aləmin qanunlarına əsasən, qadınların evlənmə həddinə çatması tez baş verir və bu da onların sayının çoxluğuna daha çox imkan yaradır.

Əgər müəyyən bir ili başlanğıc təyin edib anadan olan oğlan və qız uşaqlarının sayını qeydə alsaq, 16 ildən sonra fizioloji baxımdan ailə qurmağa hazırlığı olan qızların sayı oğlanlardan yeddi dəfə, 20 ildən sonra 11/5 (2,2) dəfə, iyirmi beş ildən sonra isə (adətən evlənmək üçün normal yaş vaxtı) 16/10 (1,6) dəfə çox olacaq. Belə olduqda, əgər çoxarvadlı kişilərin sayını beşdə bir fərz etsək, 8% kişilər bir arvadlı və 20% isə dörd arvadlı olacaq və otuzuncu ildə isə kişilərin 20%-i üç arvadlı olacaqdır.

Bundan əlavə, qadınların ömrü kişilərdən çox və həmişə cəmiyyətdə dul qadınların sayı dul kişilərdən artıq olur. Eləcə də kişilərin tələfatı qadınlardan çoxdur, xüsusilə dünya müharibələrini buna misal göstərmək olar.

Son vaxtlar qəzet və jurnallarda verilən məqalələrdən biri də bu idi ki, "Almaniya Qadınlar Cəmiyyəti" dövlətdən İslamda olan çoxarvadlılıq qanununun Almaniyada da icra olunmasını istəmişlər. Çünki, bu vasitə ilə dul qadınların da cinsi ehtiyacları təmin olunacaqdı. Amma dövlət isə kilsənin müxalifəti ilə bu təklifi qəbul etməmişdir.

Başqa bir tərəfdən isə qadınların çoxarvadlılıqla müxalifəti hansısa bir instinktiv hissdən qaynaqlanmır. Çünki kişilər ikinci, üçüncü və dördüncü arvadı zorla almırlar. İkinci, üçüncü və dördüncü arvad olanlar da göydən düşməyiblər və onlar da adi qadınlardır. Bu adət min illərdir ki, bir çox millətlər arasında olub və bu yolla nə pozğunluq əmələ gəlib və nə də qadın azlığı yaranmışdır.

## İslamın evlənmək və ailə qurmaq haqda nəzəri nədir?

**Cavab:** Evlənmək və ailə qurmaq haqqında İslamın nəzərini və onun başlıca qanunlarını dəlilləri ilə geniş izah etmək bu məqalənin öhdəsindən xaricdir. Amma qısa şəkildə demək olar ki, İslam evlənməyi və ailə qurmağı cəmiyyətin yaranmasına və davam tapmasına əsas səbəb bilir. Bu mənada ki, xilqət insanlar arasında ictimaiyyət yaratmaqdan ötrü insanları kişi və qadın cinsi üzvləri ilə yaraqlandırıb onlar arasında instinktiv əlaqə yaratdı. Bu instinktiv istək nəticəsində onlar bir-biri ilə yaxınlaşıb uşaq dünyaya gətirirlər ki, bunda hər ikisinin rolu var. Ana uşağa hamilə olduqdan sonra onu dünyaya gətirir və öz körpəsinə olan məhəbbət



hissi ilə böyüdüb boya-başa çatdırır. Bu işdə çətinliklə yanaşı olan ləzzət hissi onların məhəbbətini artırır və nəticədə tərbiyəetmə prosesi ikiqat artır. Körpəni boya-başa çatdırırlar və valideynin bu məhəbbəti müqabilində uşaq da onlara məhəbbət göstərir. Beləliklə, ailə quruluşu, sonra qohumluq əlaqəsi, şəhər və ölkə ictimaiyyəti yaranır.

Aydındır ki, bu halda, cəmiyyətin aradan getməsinin qarşısını almaqdan ötrü ehtirasların məhdudlaşdırılması və kişini öz rəsmi arvadından, qadının isə öz rəsmi ərindən kənara çıxmaması lazımdır. Eləcə də uşağın atası məlum olmalıdır. Əks təqdirdə, cavanlar öz ehtiraslarını başqa yolla təmin edib, ailə qurmağın çətinliyinə razı olmazlar. Belə olduqda ata ilə övlad öz aralarında genetik bağlılıq olmasına əmin olmayacaq, nəticə etibarı ilə ailə məhəbbəti zəifləyəcək. Beləliklə zinanın yayılması əxlaq pozğunluğu, tibbi və ictimai ziyanlar, nəslin kəsilməsi və saysız-hesabsız xəyanətlərlə nəticələnməklə yanaşı ailə məhəbbətinin tamamilə aradan getməsinə də səbəb olacaqdır.

Müşahidə etdiyimiz kimi, cinsi əlaqələrin azad olduğu ölkələrdə ailə məhəbbəti gündən-günə aradan gedir və belə vəziyyətlə bəşəriyyətin gələcəyi təhlükə ilə üzləşir.

Neçə il bundan əvvəl qəzet və jurnalda oxudum ki, Amerikada hər ildə 300 min atası məlum olmayan uşaq dünyaya gəlir. Bu gedişlə bəşəriyyətin taleyi 100 ildən sonra aydındır. Məhz bu baxımdan İslam qadın ilə kişinin evlənmədən cinsi əlaqəsini tamamilə qadağan edir və uşağın xərcini atanın üzərinə qoyaraq, atanı övladın həyatının məsulu kimi tanıyır.

İslamda qohumluq əlaqəsi olub təbii rəftar edilən şəxslər ilə evlənmək olmaz: ana, bibi, xala, bacı, bacı qızı və qardaş qızı kişiyə haramdır. Eləcə də gəlin, qaynana, arvadın başqa kişidən olan qızı, baldız (nə qədər ki, bacısı onun nikahındadır), ərli qadınlar və süd qohumları ilə evlənmək olmaz. Qadınlar üçün də kişilər bu nisbətlə haramdır. Bu mətləblərin dəlilləri Qurani-kərimin «Nisa» surəsinin ayələrindən, eləcə də Peyğəmbər (s) və imamlardan nəql olunan və hədis kitablarında yazılan rəvayətlərdən götürülmüşdür.

# ORTA ƏSRLƏRDƏ FƏLSƏFƏ



***Fəlsəfə ağılın inkişafı və onu həqiqətləri dərk etmək üçün araşdırma aparmağa sövq edən bir elmdir. Düzdür, bəşərin nə şərqlisi qərblidən, nə də qərblisi şərqlidən heç nə ilə üstün deyil. Amma fəlsəfənin inkişaf tarixinə nəzər saldıqda bunların bir-birinə olan təsirini müşahidə edirik. Burada söhbət fəlsəfənin geniş mənada inkişafından gedir. Lakin fəlsəfə Qərbin özündə belə özünəməxsus bir inkişaf yolu keçmişdir ki, bu məqalədə orta əsrlər dövrünə toxunulur. Unutmamalıyıq ki, fəlsəfə daim dinlə əlaqədə inkişaf etmişdir.***

Fəlsəfə Qərbdə Roma imperatorunun xristianlığı qəbul etməsindən sonra öz tənəzzül dövrünə qədəm qoydu. Üçüncü əsrdən etibarən xristianlığın Avropada yayılması ilə azad əqli düşüncəyə son qoyuldu. Bu qaranlıq əsrlər adlanan dövr min il davam etmişdir. Həmin dövrdə insanının azad əqli düşüncəyə malik olması fikri alt-üst olunmuşdu.

İslam dininin məntiqində isə ağıl azaddır. Nəfsə tabe olan ağıl qəbul olunmur. Əgər məntiqin, təfəkkürün varsa, mübahisə et və həqiqət sənə aydın olsun. Xristianlığın yayılmasında imperatorun öz məqsədi var idi. O, məqsədini gerçəkləşdirmək üçün insanın sərbəst düşünməsinə maneələr axtarırdı. Beləliklə, imperatorun göstərişi ilə insan ağlının məhdud olması barədə şayiələr yayıldı və insanlar tədricən əqli elmləri kənara qoyub xristianlıq dininə yaxınlaşmağa başladılar. Onların atdığı bu səhv addım həm dinin təhrifinə, həm də fəlsəfə elminin naqisliyinə səbəb oldu. Belə ki, deyirlər bundan sonra Romanın üçallahlığı İsanın (ə) təkallahlığı ilə barışdı. Bu fikrimizi sadə bir misal ilə izah edək: Məsələn, fərz edək iki nəfər şərik ticarətlə məşğuldur. Birinin dinə münasibəti müsbət, digərininki isə mənfidir. Onlar ticarətlərində razılığa gələ bilirlər. Amma fikirləri ziddiyyət təşkil edir. Bunların barışığı bir-birinə zidd olan bir barışıqdır. Romada həmin dövrdə bütlər mövcud idi. Onlardan ata, ana, müqəddəs ruh, yer, göy və onları bir-birinə bağlayan və s.-ni göstərmək olar. Roma imperatorunun xristianlıqla barışığı fikirlərin yox, fikir sahiblərinin barışığı idi ki, bu məsələ öz daxilində böyük ziddiyətə malik idi. Məlum olduğu kimi, belə hal özünü axırda biruzə verəcəkdi. Beləliklə xristianlıq dini yavaş-yavaş tövhiddən (təkallahlılıqdan) uzaqlaşmağa başladı. Hələ ilk dövrlərdən bu fikirlərdə olan təzadlar özünü bariz şəkildə göstərmişdi. Onlar qəbul etdikləri və bütləri ilə barışığa gətirdikləri dini əsaslandırmağa çalışırdılar. Buna görə də özlərinə fəlsəfi bünövrələr axtarmağa başladılar. Qərbdə "sxolostika" adlanan məktəb dini əsaslandıran bir fəlsəfi cərəyana çevrildi, "Sxolostika"fəlsəfəsinin məqsədi dini etiqadları əqli cəhətdən əsaslandırmaq idi. Lakin bu fəlsəfi məktəb Aristotel fəlsəfəsinə qarşı mənfi münasibət bəsləyirdi. Ona görə ki, Aristotel fəlsəfəsi azad fikrə, düşüncəyə əsaslanırdı. Sxolostika fəlsəfəsi eşq və irfana əsaslanan Platon fəlsəfəsinə daha çox əhəmiyyət verirdi. Buna görə də Aristotelin fikirləri müxalif fikirlər kimi təqdim olunur və onun fəlsəfəsinin tədrisinə icazə verilmirdi.

Məqalənin əvvəlində qeyd etdiyimiz kimi, bir tərəfdə, yəni Qərbdə azad düşüncə həbsə alındıqda, digər tərəfdə, yəni Şərqdə İslamın gəlişi ilə azad təfəkkürə böyük üstünlük verildi. Səlib yürüşlərindən sonra İbn Sinanın, İbn Rüşdün fəlsəfi fikirləri xristian aləminə nəql olundu. Bu dövrdə Şərqdə texnologiya da Qərbdən daha çox inkişaf etmişdi. Hətta Qərbdə bir imperator Şərqin qum saatını görəndə bunun şeytan əməli olduğunu bildirərək öz acizliyini göstərmişdir. Beləliklə, qərblilər qərbi Şərq vasitəsilə tanıyırlar. Nə üçün? Çünki Qərbin azad təfəkkürü kilsənin zindanlarında həbs olunmuşdu. İbn Sinanın, İbn Rüşdün fəlsəfəsi Aristoteli də onlara tanıtdırdı. Onlar tədricən dinin düzgün dərk olunmasında azad təfəkkürün əsas rolunu anlamağa başladılar. On-

lar etiraf edirlər ki, biz özümüzü islamla tanıdıq. Səlib yürüşlərindən sonra qərblilər Sxolostika fəlsəfəsinin onların təfəkkürlərini və müstəqil düşüncələrini çərçivəyə saldığını və artıq onun mənfi bir məktəb olduğunu anlamağa başladılar.

Yuxarıda dediklərimizi qısa şəkildə belə yekunlaşdıra bilərik: Xristianlığın Avropada yayılması və kilsənin Roma imperatorluğu ilə birləşməsindən sonra elmi mərkəzlər hakim orqanların nüfuzu altına düşdü. Belə ki, 6-cı əsrdə Afina və İsgəndəriyyə məktəb və universitetləri bağlandı. " Orta əsrlər dövrü" adlanan bu min ilin xüsusiyyəti o idi ki, kilsə sözün əsl mənasında elmi mərkəzlər və universitetlərin proqramına hakim idi.

Bu dövrün fəlsəfi şəxsiyyətlərindən olan Ser Avqusto xristian əqidəsini fəlsəfi əsaslarla, xüsusilə Platon və neoplatonizm fikirləri ilə bəyan etdi. Ondan sonra fəlsəfi bəhslərin bir hissəsi məktəb proqramlarına daxil edildi. Lakin hələ də Aristotelin fikirlərinə qarşı etinasızlıq hökm sürürdü. və onun fikirləri dini əqidəyə müxalif kimi təqdim olunurdu. Qeyd etdiyimiz kimi sonralar onun fikirləri Qərbdə islam filosofları vasitəsilə tanıdılmağa başladı.

Getdikcə kilsə bu fəlsəfi cərəyanın müqabilində müqavimət göstərə bilmədi. Nəhayət Ser Tomas Akveni Aristotelin fəlsəfi fikirlərinin çoxunu qəbul etdi və onları araşdırmağa başladı. Bir sözlə, fəlsəfə orta əsrlər dövründə Qərbdə nəinki tərəqqi etmirdi, hətta öz tənəzzül dövrünü keçirirdi. Avropada xristianlığın təhrif olunmuş əqidələrini izah edən, əsaslandıran yeganə fəlsəfə sxolostik fəlsəfə idi. Təbii ki, belə bir fəlsəfənin taleyi ölüm və məhvdən başqa bir şey olmayacaqdı.

İnsan düşüncəsi düzgün şəkildə qurulmalıdır. Düzgün şəkildə qurulduğu təqdirdə davamlı olar. Əks halda onun məhv olma təhlükəsi vardır. Sxolostika fəlsəfəsi nə düzgün din, nə də düzgün fəlsəfə idi. Bu fəlsəfənin nümayəndələri həm din, həm də fəlsəfədən sui-istifadə edirdilər.

Fəlsəfə azad təfəkkür və əqlin inkişafıdır. Din isə ibadət, ilahi vəzifələri yerinə yetirməkdir. Fəlsəfə insanı müstəqil düşünməyə dəvət edir. Dinə məhdud əqlə əsaslanan fəlsəfi don geyindirdikdə, özünün ilahiliyini və müqəddəsliyini itirər. Biz həm dində, həm də fəlsəfədə diqqətli olmalıyıq. Hərkəs fəlsəfəni din, filosofu isə peyğəmbər hesab etsə, hər ikisinə zülm etmiş olur. Fəlsəfə bəşər əqlinin məhsulu, din isə ilahi vəhydir. Əgər kimsə dini, fəlsəfə dərəcəsinə endirsə, fəlsəfədə olan cüzi səhv dinin səhvi kimi dərk olunacaq və bu da dini gerilik kimi təqdim edənlərin əlinə əsas verəcək. Sxolostiklər azad fikri məhdudlaşdırdıqda dini də həbs etdilər.

Ümumiyyətlə, iki istiqamət mövcuddur. Biri yuxarıdan aşağı, digəri isə aşağıdan yuxarıdır. Birincisi vəhy, digəri ağıl və fəlsəfədir. Ağıl kamala çatanda həqiqət aşkar olur. Yarı din, yarı fəlsəfə olması mümkün deyil. Çünki ağıl hələ inkişafdadır və mümkündür ki, bəşərin səhvləri olsun. Digər tərəfdən qeyd etdiyimiz kimi, söhbət sağlam ağıldan gedir. Əgər ağıl qərəzlidirsə, onun təkamülündən danışmaq düzgün deyil. Bu cür bəşəri fikirlər din adı ilə təqdim oluna bilməz. Biz Quranı tənqid edə bilmərik. Çünki Quran ilahi kitabdır, amma Quranı fəlsəfiləşdirdikdə hər ikisinə zülm etmiş oluruq. Naqis ağlın dinlə təzadı çoxdur, kamil ağlın isə heç bir ziddiyəti yoxdur. Biz heç vaxt Quranın müəllimi ola bilmərik. Bizim müəllimimiz Allah, Onun Rəsulu və Qurandır. Yəni biz Qurandan qabağa gedə bilmərik və həmişə onun qarşısında şagird kimiyik. Quran nə naqis, nə də artıqdır ki, onda islahat aparıb təkmilləşdirək. Amma fəlsəfədə ola bilər ki, bir qədər irəli gedək. Fəlsəfədə islahat məna kəsb edir.

Beləliklə, bir-birinə zidd fikirlərin qarışması Avropada həm dinin həm də fəlsəfənin axırına çıxdı, Avropada renesans dövrü başladı. İnsanların həm dinə, həm də fəlsəfəyə münasibəti dəyişdi.

Əgər bir nəfər Molla Sədra fəlsəfəsini qəbul etməsə, ona kafir demək olmaz. Quranın dediyini, ilahi kəlamı qulaq ardına vurmaq kafirlikdir. Yəni fəlsəfi təfəkkürü qəbul etməklə dini qəbul etmək arasında fərq vardır. Amma ola bilər ki, Molla Sədra fəlsəfəsindəki fikir Quran ayəsilə üst-üstə düşsün. Bunun qəbul olunmaması Qurana görə kafirlik sayila bilər .

Sxolostika fəlsəfəsinin yaratdığı ziddiyyət renesans dövründə dinin və fəlsəfənin meydandan çıxıb öz yerini təcrübi elmlərə verməsinə səbəb oldu. 16-cı əsrdə Kopernikin, Keplerin və Qalileyin nəzəriyyələri Aristotelin və Platonun fikirlərini alt-üst etdi. Bildiyimiz kimi, Aristotel fizika, məntiq və riyaziyyat elmlərilə yanaşı fəlsəfədə də məşhur alim idi. Bir alimin müəyyən bir sahədə səhvinə görə onun bütün nəzəriyyələrini tamamilə rədd etmək düzgün deyil. Aristotelin fizika sahəsində etdiyi səhvinə əsasən fəlsəfəsinin də səhv olduğu fikri yayılmağa başladı. Renesans dövründə məsələyə səhv yanaşıldı və din ilə fəlsəfə tamamilə kənarlaşdırıldı. Kilsə də onlara qarşı yanlış mövqe tutdu və alimlərin qətlinə fərman verdi. Dediyimiz kimi, din ilə fəlsəfənin qarşılığından doğan bütün səhvlər kilsənin boynuna qoyuldu. Belə bir şəraitdə bunlardan daha təhlükəli bir cərəyan, "humanizm" cərəyanı yarandı və Allahın varlığı tamamilə kənara qoyuldu və guya insana əhəmiyyət artdı!

Məhəmməd Baqir Saivər



# Bakıxanovun d bi irsind elm v f ls f

**Sovetl r ittifaqı dövründ Bakıxanovun ş xsiyy ti v yaradıcılığının bir çox c h tl ri, o cüml d n xlaqi-ürfani görüşl ri dolğun ks etdirilm miş v ya mü yy n s b bl r üzünd n diqq td n k narda qalmışdır. Sovetl r dön mind ki hakim siyasi, d bi mühit uyğun olaraq d rin dini görüşl r malik v sadiq olan şair v dibl rin yaradıcılığında geniş yer almış xlaqi-ürfani fikirl ri, ad t n, yazarın dünyagörüşünd ki ziddiyy tl r kimi izah edir, onun s b bini yazıçının yaşadığı mühitin, patriarxal dini baxışların ona göst rdiyi t siri kimi qiym tl ndirirdil r.**

Bakıxanov dini etiqadlara hörmət və riayət edən edən müsəlman ailəsində doğulmuş, mükəmməl İslam tərbiyəsi almış bir ziyalıdır. O şüurlu şəkildə, heç bir siyasi mühitin basqısı olmadan müstəqil yaşamış və yaratmışdır. Çünkı onun qarşısında istənilən düşüncə məkanı və seçimi açıq idi. Bakıxanovun dini-fəlsəfi, əxlaqi-ürfani mövzulara müraciət etməyi bəzi yazarlarda müşahidə edilən səthi bir yanaşma, qələm sınağı olmamışdır. Adətən, klassik yazarların əksəriyyəti ömürlərinin xəzan fəslində əxlaqi-ürfani mövzulara müraciət edir, qələmlərini bu yöndə də sınağa çəkirlər. Bakıxanov isə tam əksinə, bu mövzulara gəncliyinin erkən vaxtlarından maraq göstərmişdir. Bunun ən böyük nümunəsi şairin gənc yaşlarında "Riyazül-Qüds" kimi dərin dini məzmunlu əsər yazmasıdır. Mərsiyə xarakterli bu əsərində Bakıxanov tam əqidəli bir müsəlman kimi dinə sədaqətini, Əhli-Beytə vurğunluğunu, onların dərdi ilə qovrulduğunu nümayiş etdirir:

**Canə gəlmişdim Rəsul evladının dərdilə mən,**
**Söyləməklə dərdimi yüngül və assan eylədim.**

**Son vəsi evladının meydandakı cövlanını**
**Vəsf edib mən də qələm atilə cövlan eylədim.**

Ümumiyyətlə, Bakıxanovun əsərlərində şərq poeziyasının, xüsusilə panteist ruhlu arif və şairlərinin təsir izləri müşahidə olunur.

Əhli-Beyt imamlarına, xüsusilə də Kərbəla şəhidi İmam Hüseynə diqqət və rəğbətini coşqunluqla ifadə edən Bakıxanovu Əhli-Beyt şairi də hesab etmək olar. Bir şerində Bakıxanov Əhli-Beyt şairi Möhtəşəm Kaşaninin Məhərrəm ayını vəsf edən şerinə nəzirə olaraq deyir:

**Bu nə şuriş, nə qovğadır, tutubdur aləmi nalə,**
**Qana qərq olmuş hər bir göz qızarmış, sanki bir lalə**

**Uzanmaz hər qəmü-matəm, aman bəs bu nə matəmdir,**
**Ki, hey artar günü-gündən yenə o çatmaz ikmalə?!**

Bu gün xalq arasında "on dörd məsumun tilavəti" kimi məşhurlaşan, Şeyx Bəhaəddin Amuliə mənsub olan duanın Bakıxanov tərəfindən nəzmə çəkildiyini yəqin ki, çox az adam bilir.

Sadə insanların ərəb dilində asan əzbərləməsi üçün nəzmə çəkilən bu dua "ilahi bi-nəbiyyin, ərəbiyyin və rəsulin mədəniyyin" misrası iıə başlayır.

Bakıxanovun içəridən gələn bir sevgi ilə öz ana dilində nəzmə çəkdiyi və indiyə qədər çap edilməmiş bir əsəri də "təvəssül" dua – münacatıdır.

Kiçik həcmdə olan bu əsər Əlyazmaları institutunun "fp-1525" şifrəsi altında qeydə alınıb. Əlyazma əsərinin təhqiq və düzəlişlərə ehtiyacı var. Amma onun ilkin, redaktə olunmamış variantının bir hissəsini sizə təqdim edirik:

Xudaya, gəilb dərgahıva bir əbdi miskin,
Zəlili-natəvan bir zari-ğəmgin.
Bihəqqi-Mustafa şahənşahi-din
Əğisna ya Ğiyasəl mustəğisin.

İmamım çün Əliyyi-Murtəzadır,
Muəynim Fatimə, Xəyrin-Nisadır.
Qabağında dəlilim Müctəbadır
Əğisna ya Ğiyasəl mustəğisin.

Qalan nəşi yer üstə xar üryan,
Olan öz qanına meydanda qəltan.
Bihəqqi-şahi- məzlum, ləbi-ətşan
Əğisna ya Ğiyasəl mustəğisin.

Yoxudur bir nəfər ənsari, ya Rəbb,
Olubdur gözlərim xunbar, ya Rəbb.
Bihəqqi- abidi-bimar, ya Rəbb
Əğisna ya Ğiyasəl mustəğisin.

Ki, tağı ərşi elm bəhri moci,
Muhəmməd Baqirdir din pənahı
Bihəqqi-Cəfəri- Sadiq ilahi,
Əğisna ya Ğiyasəl mustəğisin.

İmam Museyi-Kazimdir rəhbər,
Xorasanın ğəribi xəlqə sərvər.
Bihəqqi- nuri- paki- Ali- Heydər,
Əğisna ya Ğiyasəl mustəğisin.

Şəfa olmaz ona hər kim şəqidir,
İmamım adilu kamil Təqidir.

Min bir yarəyə Hadi Nəqidir,
Əğisna ya Ğiyasəl mustəğisin.

Ki, gəldi bəndə bu zar fəğanə,
Bağışla Əskəri şahi-cəhanə.
Muhəmməd Məhdi Sahibzəmanə,
Əğisna ya Ğiyasəl mustəğisin.

**A.Bakıxanov 1846-cı ilin martında Məkkə ziyarətinə getmişdir. O, Tehran, Təbriz, İstanbul, Misir marşurutu ilə arzusunda olduğu müqəddəs məkana yetişir. 1847-ci ilin əvvəlində Məkkə ziyarətindən qayıdarkən 52 yaşında Vadiyi-Fatimə deyilən yerdə vəba xəstəliyindən vəfat etmişdir.**

Füzuli Şəfiyev
***(Birlik.az)***

## NƏ ÜÇÜN ALLAH-TAALA "RƏBBUŞ-ŞİRA", YƏNİ ŞİRA (PROSİON) ULDUZUNUN RƏBBİ KİMİ TANITDIRIR?

Allahın Özünü "Rəbbuş-şira" adlandırmasının iki səbəbi var:

1. Xuzaə adlı ərəb qəbiləsi Şira ulduzuna pərəstiş edir, ona həmd oxuyurdular. Onların nəzərincə, yer üzündə əlamətlərin mənbəyi bu ulduz olmuşdur. Ona görə də Allah-təala bu ulduzun da başqa varlıqlar kimi yaradılmış bir varlıq olmasını önə çəkərək buyurur: "Şira ulduzunun da Rəbbi Odur." Həmin qəbilənin nəzərinə çatdırılır ki, onlar yanlış yol tutaraq, Allahın yaratdıqlarından birinə pərəstiş edirlər.

2. Şira ulduzu səmadakı parlaq ulduzlardandır. Nücum sahəsinin biliciləri onu "alfa" və ya "ulduzlar padşahı" adlandırmışlar. Bu ulduzun bəzi maraqlı xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərdən bir qismini nəzərdən keçirək:

a) Paris rəsədxanasında aparılmış tədqiqatlara əsasən, Şira ulduzunun səthində temperatur yüz iyirmi min dərəcə santiqraddır. Hansı ki, planetimizi işıqlandırıb, onda həyatı təmin edən günəş səthində temperatur altı min beş yüz dərəcə santiqraddır. Demək, Şira ulduzunun temperaturu fövqəladə dərəcədə böyükdür.

b) Bu ulduzun xüsusi çəkisi suyun xüsusi çəkisindən 50 min dəfə ağırdır. Hansı ki, günəş sisteminin ən ağır xüsusi çəkiyə malik olan planeti Merkurinin xüsusi çəkisi sudan cəmi altı dəfə çoxdur. Belə bir xüsusi çəki Şira ulduzunun tərkibi haqqında maraqlı fərziyyələr doğurmuşdur.

v) Şira ulduzu, mərkəzində bir xətt boyunca düzülmüş üç ulduz olan gözəl bir trapesiyanın altında yerləşir.

q) Şira səmanın ən parlaq ulduzlarındandır. O, adətən, qış fəslində zühur edir. Amma qədim Misir münəccimlərinin dövründə, təqribən yeddi min il bundan qabaq Şira ulduzu yayın əvvəllərində görünərdi.

d) Şira ulduzu ilə bağlı aparılan araşdırmalardan məlum olmuşdur ki, bu ulduz günəşdən təqribən iyirmi dəfə böyük həcmə malik olan əzəmətli bir kürədir. Amma bu ulduz yer planetindən çox-çox uzaqdır. Bilirik ki, işıq sürəti saniyədə üç yüz min kilometrdir. Günəşin nuru yüz əlli milyon kilometr məsafəni səkkiz dəqiqə on üç saniyədə qət edərək, yerə çatır. Amma Şira ulduzunun işığı bizim yer kürəsinə on il yol gəlir.

İnkar etmirik ki, bu sayaq xüsusiyyətlərə malik başqa ulduzlar da var.

# İKİ AYƏNİN TƏFSİRİ

***Allah-Təala məxluqlarının əzəmətini izhat etmək üçün onlara and içir. Belə andlar Quran ayələrində çoxdur. Aydındır ki, məxluqun əzəməti Yaradanın möhtəşəmliyinə dəlalət edir. Nəcm nədir? Nəcmin bir çox mənaları var, hər bir məna öz növbəsində bəyan və nümunədir***

## "AND OLSUN NƏCMƏ VƏ ONUN PƏRVƏRDİGARINA"

Gecə vaxtı başının üstündə gördüyün ulduzların sayı nə qədərdir? Hamımızın bildiyimiz kimi insanların ixtira etdikləri bu qədər cihaz və heyrətə səbəb olan teleskoplar vasitəsilə hələ də ulduzuların sayı müəyyənləşməyib.

Təntah Misri öz kitabında yazır: "İndiyə qədər kəşf olunmuş uldzların sayı üç yüz milyarda çatır və hələ də haqqında məlumatımız olmayan ulduzlar mövcuddur".

Ümumiyyətlə yaradılış sistemi çox böyükdür. Astranomiyada qeyd olunub ki, bəzi qalaktikaların ulduzuları Günəşdən bir neçə milyon dəfə böyükdür (Günəş isə Yerdən 1300000 dəfə böyükdür). Həmçinin bəzi ulduzların işığının Yerə gəlib çatması üçün min işıq ili vaxt keçir (İşıq hər saniyədə 300000 kim yol gedir).

İnsan dünya işlərində və müxtəlif fikirlərdə çox xırdalığa varmamalıdır. Çünki boş və faydasız düşüncələr onu mühüm və ali işlərdən, məxluqatın əzəməti barəsində təfəkkürdən uzaqlaşdırır. Ulduzları seyr edin! Gecənin əvvəlində hansı tərəfdədirlər və gecə yarısı harada? Bəzi ulduzlar o qədər parlaqdırlar ki, aradakı məsafənin çoxluğuna baxmayaraq, Yeri işıqlandırırlar.

İnsan məxluqatın əzəmətini seyr etdiyi zaman Xaliqin əzəmətini dərk edir. Nəticədə insanın ruhu böyüyür və Allahın böyüklüyünü dərk etdiyi zaman həqiqətən "Allahu Əkbər" deyir. Yəni, Allahın böyüklüyü vəsf oluna bilməz. Bu dünyanı hərəkətə gətirən və yaradan Odur.

Peyğəmbər (s) gecə üç dəfə durub dəstəmaz alar və "Ali-İmran" surəsinin axırıncı ayələrini oxuyub, gecə namazı qılardı.

Zəməxşəri "Rəbiül-Əbrar" kitabında nəql edir ki, bir gecə İmam Səccad (ə) dəstəmaz almaq üçün əlini su olan qaba uzatdıqda birdən başını göyə qaldırdı. Səma aydın idi. Müəzzin sübh azanını deyənə qədər, Həzrət əlləri su qabında, başı isə göylərə sarı asimanın əzəməti barədə fikrə dalmışdı.

Bir sözlə məqsəd məxluqat barəsində təfəkkür etməkdir.

Allahın Nəcmə (Yəni ulduza) and içməkdə məqsədi insanların diqətini məxluqatın Yaradılmasına cəlb etməkdir. Bəşər Allahın əzəmətini dərk etdiyi zaman kimin müqabilində günah etdiyini, kimin əmrindən boyun qaçırtdığını və kimdən hacət dilədiyini anlayar.

Nəcmin dərəcələri vardır, onlardan biri Sürəyya ulduzudur. Sürəyya ulduzu ərəblər içərisində uca tutulur, çünki onun doğması və qürub etməsi qış əlamətidir. Bəzilərinin nəzərinə əsasən, Sürəyya yeddi ulduzdan ibarətdir. Onlardan altısı çox parlaq, biri isə az parıltılı ulduzlardır. Qədimdə həmin az parıltılı ulduzu seçməyi görmə qabiliyyətinin yaxşılığına dəlil sayırdılar.

Nəcmin başqa bir mənası Qurani-Məciddir. Yəni, Qurani-Məcidə and olsun. Ərəb dilində günbəgün, ya həftəbəhəftə, ya aybaay Yaranan bir işə "nəcm" deyilir. Quranın da Peyğəmbərə (s) tədricən nazil olduğuna görə "Nəcm" adlanır.

Nəcmin başqa bir mənası sonuncu peyğəmbər Məhəmməddir (s). "Əmmə" təfsirində İmam Sadiqdən (ə) nəql olunub: "Sə'ni Peyğəmbərin (s) vücuduna and olsun. O Allahın ərşi sayılan Əla aləmində bir nur idi. Bu nur Yerə enib dünyanı işıqlandırdı".

Peyğəmbər (s) özü bu barədə buyurub: "Mən və Əli vahid bir nur idik, sonra Allah başqa mövcudları xəlq etdi".

Məhəmmədə (s) and olsun ki, o, dünyanı işıqlandıran və heç vaxt sönməyən bir nurdur.

Peyğəmbər (s) Əla aləminə merac edib bu aləmə geri döndüyü zaman oxuduğu ilk surə "Nəcm" surəsi oldu. Allah Rəsulu bu surəni qiraət etdiyi vaxt Peyğəmbərin kürəkəni olan Əbi Ləhəbin oğlu Ütbə dedi: "Mən nəcmə, nəcmin Allahına və nəcmin Peyğəmbərinə qarşı kafirəm". Peyğəmbər böyük bir səbrə malik olduğuna baxmayaraq həddini çox aşdığı üçün ona nifrin etdi və dedi (məlumdur ki, Peyğəmbər onun hidayətinə ümidsiz idi və bu hadisənin başqalarına ibrət olmasını istəyirdi): "İlahi, bir iti ona qalib et". Ütbə cavabında dedi: "Ya Məhəmməd, qızına talaq verdim".

Bu hadisədən sonra bir dəfə Ütbə atası Əbu Ləhəb ilə səfərə gedir. Karvanın istirahət üçün dayandığı düşərgədə bir rahib onlara yaxınlaşıb deyir: "Bu yerdə insanlara əziyyət edən yırtıcı heyvanlar var". Əbi Ləhəb bərk qorxur: "Birdən Məhəmmədin nifrini Ütbəni tutar". Buna görə də oğlu üçün ortada yer salıb bütün karvan üzvlərini, əşyalarını və mallarını onun ətrafına toplayır. Gecə yarısı onları yuxu apardığı zaman bir şir heç kəsə əziyyət etmədən Ütbənin yanına gəlib onun nəhs başına pəncəsi ilə möhkəm zərbə vurub öldürdü. Hətta ətindən heç bir tikə belə yeməyib getdi.

Ütbə belə bir surətdə cəhənnəmə vasil oldu.

Nəcmin başqa mənalarından biri də gövdəsisiz bitki və ağacdır. Quranın başqa ayəsində də nəcm sözü vardır gi, elə bu mənada işlənib.

Münhəcüs-Sadiqin təfsirində deyilir ki, mühəqqiqlərin nəzərincə nəcm tovhid fələyinə çıxmış Allahdan başqa hər bir şeydən qət olmuş Məhəmmədin (s) qəlb ulduzudur.

## "AND OLSUN ULDUZLARIN DOĞAN VAXTINA"

Gecənin əvvəlində ulduzlar Nisfun-nahar xəttinə doğru hərəkət edirlər və kecə yarısından sonra aşağı enirlər. İlahi and ulduzların hər iki halətinə aiddir. Doğduğu vaxt Allahın qüdrətini izhar edirlər. Möminlər onlara baxdığı vaxt Allahın əzəmətini müşahidə edirlər.

Bu ulduzlar nədir? Nə edirlər, hara gerdilər? Hansı qüdrətli əl onları bir orbitdə müəyyən hərəkətə gətirir? Ya kecə yarısı onların qürub etməsini görən aqil adam hər şeyin fəna olduğunu və Allahdan başqa hər şeyin ortadan gedəcəyini dərk edir.

Həmçinin ulduzpərəstlərə də bir növ işarə olaraq buyurulur: "Ulduzların qürubunu da gördünüz!" Qürub edən şeyə məhəbbət bəsləmək olmaz. Ulduzların doğuşu və qürub etməsi dənizdə insanlar üçün yol göstəricidir. Gəmi heyəti bununla şərqi və qərbi müəyənləşdirirlər, beləcə şimal və cənub da aydınlaşır. Gəmi kapitanı ulduzlar vasitəsilə gəmini idarə edir.

Ulduzların qürub etdiyi vaxt - gecə yarısı Allahın rəhmət qapıları açılır.

# NEMƏTLƏRİ AXİRƏTƏ APARAN

Sahibi olduğu hər bir şeyin İlahi bir nemət olduğunu kifayət qədər dərk etməyən insan həyat səhnəsinə addımını atandan etibarən hər gün yeni bir nemət izinə düşür. Bəzən izinə düşdüyünü əldə edir, bəzən isə məyus halda yarı yoldan geri qayıdır. Əldə etdikdə özündən, məyus olduqda isə Xaliqdən bilir. Nəticə etibarilə hər iki halda onu hər gün müxtəlif yollara sürükləyən nemət əldə etmək arzusunu düzgün qiymətləndirmir.



Bəlkə insan «hər şeyi sənin üçün yaratdım, ey insan» Allah kəlməsinə güvənir?! Bəlkə də özünün ən ali varlıq olmasına?! Bəlkə düşünür ki, nə yaradılıbsa ondan istifadə etməlidir?! Bəlkə də düşünür ki, ona əta olunanı özü əldə edir?!

Təbii ki, Allah-taala yaratdığı hər bir şeyi insan qarşısında ram etmişdir. İnsandan sadəcə düzgün düşünüb yaradılan hər bir şeyin düzgün əldə edilməsi istənilir. Daha doğrusu neməti əldə etmək yolu, qaydası Allah tərəfindən bəyan olunub, insana yalnız əməl edilməsi qalır. Amma öz verdiyi əhdi belə unudan insan Yaradanın bəyanını lazımınca xatırlaya bilirmi?!

İnsan həmişə azad olmaq istəyir və bu yoldakı maneələrlə razılaşa bilmir. Əslində insan azad yaradılsa da Allahın qayda-qanunları çərçivəsində azaddır. Bu qanunları pozub azad olmaq insana yaraşmır. Çünki qanun pozuntuları ilə Allahın ən ali məxluqu zirvəsini fəth etmək mümkün deyil. Müəyyən çərçivədəki azadlıqla Yaradanın bəyanatını olduğu kimi xatırlamaq insan üçün mümkün ola bilər. Bu zaman artıq heç bir əbəs güvənc yeri olmadan yaradılanlar izinə düşmək olar.

Yaradılanlar izinə .. Özü də yaradılmış və yaradılanlar izində.. Uca Yaradan nemətləri yaratmış və insanı bu nemətləri əldə etmək üçün sərbəst etmişdir. Heç bir qadağa qoymamışdır. Qadağa olan qanun pozuntularıdır.

Amma yeni nemət arzulayan insan sahibi olduqlarına diqqət yetiribmi?! Bəlkə onların içində dəyərliləri var?! Bəlkə də arzuladığı elə onlar arasındadır?!

Başı min cür nemət arzusuna qarışan insan ona sevinc gətirən bir şeyi əldə edərkən sevinər, Allahın onu sevdiyindən etdiyini zənn edər və təkəbbürlənər. Amma istədikləri puç olduqda Allahın onu zəlil etdiyini düşünüb üsyan edər. Necə ki, Qurani Kərimdə «Fəcr» surəsində 15-16-cı ayələrdə buyurulur: «Nə zaman Rəbbi onu imtahana çəkib ehtiram etsə, o «Rəbbim mənə ehtiram göstərdi»-deyər, amma nə zaman Rəbbi onu imtahana çəkib ruzisini əskiltsə «Rəbbim məni alçaltdı, mənə xor baxdı» deyər».

Budur insan. Budur onun İlahi nemətə verdiyi qiymət. Həqiqətdə yeni nemət izinə düşməsək belə o qədər sahib olduğumuz nemət var ki. Sahibi olduğumuzun təşəkkürünü etməmiş yenə də bizə təşəkkür borcu yaradan nemət arxasınca qaçırıq. Birindən ehtiyacımız olduğu bir şeyi alıb ona təşəkkür etməmiş yenidən onun qapısını döyüb yeni bir şey istəsək, əta edərmi?! Etsə də, ona bir təşəkkür borcunun olduğunu növbəti ehtiyacında mütləq dilə gətirəcəkdir.

Diqqət etsək, əlimizdə olanla o Allahdan yenə nə qədər nemət istəyirik. Heç bizdən təşəkkür belə istəmir. Yenə də verir. O verməklə Ondan heç nə əskilməz. Amma həmişə verməklə insan ayılmaz. Qəflətdə qalar, neməti nemət kimi dəyərləndirməz. Əldə edilməsini asan hesab edər, itirdikdə isə heyfslənməz.

İnsan nemətlərə dəyərsiz, yalnız müəyyən dövr üçün tələb olunan istəklərindən doğan ehtiyac kimi baxır. Ehtiyacı olduqda nemət kimi istəyir, əldə etdikdə nemət olduğunu unudur. Həqiqətdə nemətlər dünya malıdır. Amma kiminsə bu nemətlərdən məhrum olduğunu gördükdə ona halımız acıyır. Bu rəhm əvəzinə bəlkə əlimizdə olanlara şükr etsək daha yaxşı olar?! Həmçinin dünya malı olsa da hər bir nemət Allahdandır axı. Allahdan olanın mütləq axirət sevinci də var. Nemətlər də dünya malı olsalar da, şükrünü etdikdə insana axirət sevinci bəxş edər. Necə ki, İmam Hadi (ə) buyurur: «Nemətlər dünya malıdır, amma şükr, nemətləri özü ilə axirətə aparar.»

Yeni nemət axtarışına düşənlər cərgəsinə qoşulmaqdansa, nemətləri axirətə aparan şükr yolunun yolçusuna çevrilək ki, axirətdə bizə sevinc bəxş edəcək qapını aça bilək.

Kəmalə Rzayeva (Dəyərlər)

## 31 -Cİ SURƏ

# LOĞMAN SURƏSİ



***Həzrət Loğman kim idi və Allah-təala ona nə əta etmişdi?***
***Surədə Loğman öz oğluna hansı nəsihətləri verir?***
***Loğmana nə üçün nemət əta olunmuşdu?***
***Surə nazil olduğu vaxt müşriklərin əhvalatlar uydurmaqda məqsədləri nə idi?***
***Hazırkı dövrdə ideoloji müharibə aparanlar «ləhv» adı altında hansı tədbirləri görürlər və məqsədləri nədir? İlkin İslam dövründə müşriklər bu istiqamətdə hansı işlər görürdülər?***

**Surənin mətni haqqında:** Həzrət Peyğəmbərdən (s) nəql olunmuş rəvayətə əsasən Loğman peyğəmbər yox, düşüncəli bir bəndə olmuşdur. O, Allahı, Allah isə onu sevərdi. Allah-təala Loğmana elm, ilahi hikmət əta buyurmuşdu. 12-ci ayədə oxuyuruq: «Həqiqətən, Loğmana hikmət verdik ki, Allaha şükr edə. Şükür edən özü üçün edər. Hər kəs nankor olsa, həqiqətən də Allah təşəkkürdən ehtiyacsızdır...» Surənin 13, 16-19-cu ayələrində Loğmanın öz övladına çox mühüm tövsiyələri bəyan olunur. 16-cı ayələrdə oxuyuruq: «Ey əziz oğlum (sənin əməlin) xardal dənəsi ağırlığında, qayanın içində, göylərdə və yerin təkində olsa da, Allah onu ortaya çıxarar. Allah dəqiq və agahdır.»

Bu Həzrət Loğmanın öz övladlarına məad və və əməllərin sorğusu ilə bağlı tövsiyələrindən idi. Loğman övladının nəzərinə çatdırır ki, onun gördüyü iş xeyir və ya şər olmasından asılı olmayaraq, nə qədər kiçik olsa da, istənilən bir yerdə pərdələnsə də, Allah onu sorğu üçün ortaya çıxarasıdır. Allah yalnız əməllər əsasında cəza verir. Allah lətifdir və heç bir şey Onun görməsinə maneçilik törətmir. Heç bir varlıq səmalarda, yerin təkində, dəryaların dibində, dağların köksündə Ondan pünhan ola bilməz. Onun elmi bütün gizli və aşkar şeyləri əhatə edir. Allah-təala yaratdığı bütün mövcudlardan və bütün işlərdən xəbərdardır.

Növbəti ayələrdə sözünün davamında həkim Loğman öz övladına belə deyir: «Ey əziz oğlum, namaz qıl, yaxşı işləri əmr, pis işləri qadağan et. Qarşına çıxacaq çətinliklərə döz. Həqiqətən bunlar vacib əməllərdəndir. Adamlardan təkəbbürlə üz döndərmə, yer üzündə özündən razı halda gəzmə. Allah özündən razı laf əhlini sevməz. Rəftarında orta həddi gözlə və səsini ahəstə et. Çünki ən çirkin səs ulağın səsidir.» İmam Sadiqdən (ə) nəql olunmuş bir rəvayətdə belə deyilir: «And olsun Allaha, Loğmana hikmət əsil-nəsəbinə, imarətinə, var-dövlətinə, övladlarına, cisminin qüvvəsinə və gözəlliyinə görə verilmədi. Loğman Allahın əmrlərinin icrasında sabitqədəmlik və güc göstərdi. Allahın razılığı olmayan işlərdən uzaq dayandı. Loğman sakit bir insan idi. Onun dərin düşüncəsi və iti baxışı vardı. Daim ibrət götürmək istəyirdi. Əlinə dünya neməti düşdükdə sevinməz, dünya malı əlindən çıxdıqda kədərlənməzdi. Loğman iki vuruşan adamın yanından düz keçməz, dayanıb onları islah edər, dostlaşdırardı. O, din alimləri, hikmət sahibləri ilə əlaqə saxlayardı. Loğman nəfs istəklərinə qələbə yolunu hikmət sahiblərindən soruşar və yadda saxlayardı. O daim nəfsi ilə mübarizə aparar və şeytandan uzaq gəzərdi. Öz qəlbinə ibrətlə çarə qılardı. Həmin bu səbəblərə görə də Allah-təala ona hikmət və ismət əta buyurdu.»

Surə nazil olan vaxt bəzi müşriklər insanları uydurma, xürafi əfsanələrlə Allahın yolundan və Quranı dinləməkdən kənarlaşdırardılar. Onlar avamların xoşladığı maraqlı uydurmalarla onları özlərinə cəlb edər, bu yolla da xalqın diqqətini Quranın ibrətamiz əhvalatlarından yayındırardılar. Onlar xalqı Allahdan və Onun dinindən qəflətdə saxlamaq istəyirdilər. Müşriklər Qurana rişxənd edərdilər. Onlar üçün Quran oxunduqda təkəbbür və etinasızlıqla, ayələri eşitmirmiş kimi arxa çevirərdilər.

Surənin 6-7-ci ayələrində insanları «ləhv» və mənasız əhvalatlarla Allah yolundan uzaqlaşdıranlar haqqında danışılır və onlara zəlil edici əzab vəd olunur.

Ayə insanların diqqətini ləhv və mənasız işlərlə Allahdan yayındıran, müsəlman cəmiyyətini süstləşdirən bütün insanlara şamil olunur. Dövrümüzdəki ideoloji hücumlar deyilənlərə gözəl bir misaldır.

Mənasız əhvalatlar və işlər müqabilində Loğmanın nəsihətləri olduqca diqqətəlayiq və düşündürücüdür.



# "LOĞMAN" surəsi ilə dərman

1-İmam Baqir (ə) buyurdu: Bir kəs hər gecə Loğman surəsini oxusa, Allah-taala o gecə onu sübhə qədər iblisin və onun qoşununun şərrindən qorumaq üçün mələklər göndərər. Əgər bu surəni gündüz oxusa, həmin gün şəfəq batana qədər mələklər onu şeytanların şərrindən qoruyar.

2-Allahın Rəsulu (s.) buyurdu: Bir kəs Loğman surəsini oxusa, Qiyamətdə Həzrət Loğman onunla dost olar. Ona yaxşılığa əməl etmiş və pisliklərdən qorunmuş kəsin savabından on dörd dəfə çox savab verilər.

Xəvassul Quran kitabında yazılıb ki, hər kəs Loğman surəsini yazıb hakimin mənzilində qoysa, həmin il hakimiyyətdən endirilər. Bir kəs bu surəni yazıb özündə saxlasa, şəqiqədən (gicgahın ağrısından) və qızdırmadan sağalar.

İbn Abbasdan nəql olunub ki, hər kəsin qulaq ağrısı vardırsa;

1-Aşağıdakı ayəni oxumağı davam etdirsin.

"Fəmən yəstəmi ilanə yəcid ləhu şibahən rəsədən." (Cin-9)

2-Bir şəxs imam Məhəmməd Baqirin (ə) hüzurunda qulağının ağır eşitməsindən şikayət etdi: İmam ona buyurdu: Əlini qulağına çək və bu ayələri oxu: "Ləv ənzəlna hazəl Quranə əla cəbəlin lərə əytəhu xaşiən mutəsəddiən min xəsiyətillah, və tilkəl əmsalu nəzribuha linnasi ləalləhum yətəfəkkərun."

"Huvəllahulləzi la ilahə illa huvə alimul-ğəybi vəşşəhadəti, huvər-rəhmanir-rəhim. Huvəllahulləzi la ilahə illa huvəl məlikul quddusus-səlamul mu`minul muhəy minul əzizul cəbbarul mutəkəbbiru, Subhanəllahi, əmma yuşrikunə. Huvəllahul xaliqul bariul musəvviru ləhul əsmaul husna. Yusəbbihu ləhu mafissəmavati vəl`ərzi və huvəl əzizul həkim." (Həşr-21-24)



3-Qulağına tut və aşağıdakı ayəni üç dəfə oxu:

"Minha xələqnakum və fiha nundukum və minha nuxricikum tarrət ən uxra." (Taha-55)

4-Bu ayəni özündə saxlasın.

"Və iza Quriəl Quranu fəstəmiun ləhu və ənsitu ləalləkum turhəmun." (Əraf-204) "Kəənnə ləm yəsməəha kəənnə fiuzunəyhi vəqrən, fəbəşirhu biəzabin əlim." (Loğman-7).

# İMAM ƏLİ (Ə) VƏ RİYAZİYYAT

*Məktəbdə bəzilərinizin çox sevdiyi, bəzilərimizinsə qorxulu yuxusudur riyaziyyat dərsi, belə deyilmi? Çox vaxt içindən çıxılmaz hala gələn; toplama- çıxma və s. əməliyyatlar, işçi, hovuz mövzusunda bir çox problem növü, tənliklər, məchulu tapma...*

*"Müəllimim, bu öyrəndiklərimiz gələcəkdə, gündəlik həyatda işimizə yarayacaqmı?"- deyə soruşduğunuz an olubmu?*

*O zaman sizlərə, riyaziyyatı bilməyin nəinki dünyamızda, hətta axirətimizdə belə işimizə yarayacağını söyləsəm, mənə inanarsınızmı? İndi bir çoxunuzun içindən keçirdiyi "Necə olacaq bu, Allah bizi etdiklərimizə görə sorğuya çəkəcək, yoxsa bu hesablamanı edə bilirsənmi deyə?" - sualını cavablandıra bilmək üçün, keçmişə gedərək imam Əlinin (ə) üzləşdiyi bir hadisəyə bu günün riyaziyyatı ilə birlikdə baxmağa nə deyərsiniz?*

*Tarixdə qeyd edilib ki, imam Əlinin (ə) zamanında dəvə ticarəti ilə məşğul olan üç şərik, aralarındakı anlaşılmamazlığı aradan qaldırmaq üçün imamın yanına gəlirlər. Birincisi "sərmayənin yarısı mənə aid idi", ikincisi "Məndə üçdə birinə şərik idim," üçüncüsü "Mənə düşən hissəsi isə, doqquzda bir idi"- deyir. Hal-hazırda 17 dəvəmiz var, amma bu dəvələri aramızda bölə bilmirik. İmam (ə) bu problemi necə həll edir deyərdiniz və siz olsaydınız necə həll edərdiniz?*



*İmam Əli (ə) dəvəsini gətirib, onların dəvələrinin yanında saxlayır. Deyir: "İndi dəvələrin cəmi 18 oldu. Birincisinə "Sənin haqqın sərmayənin yarısı idi, 9 dəvəni götür çıx kənara baxaq", ikincisinə "Səninki də üçdə bir idi, sən də 6 dəvəni götür kənara çıx baxaq", üçüncüsünə də "Sənin haqqın sərmayənin doqquzda biriydi, sən də 2 dəvəni götür kənara çəkil, baxaq və yerdə qalan bu bir dəvə də mənim dəvəm idi..." deyir.*

*Əlinizə bir qələm, bir də kağız alın, indi birlikdə bunu həll etməyə çalışaq...*

*Birincisinə düşən pay sərmayənin 1/2-i; ikincisinə düşən sərmayənin 1/3-i; üçüncüsünə düşən isə, 1/9-idir. Sahib olduqları sərmayə 17 dəvədir.*

*1x/2 + 1x/3 + 1x/9 = 17 ; məxrəcləri 18-ə gətirdiyimiz zaman,*

*1x/2(9) + 1x/3(6) + 1x/9(2) = 17 buradan x-in 18 olduğunu taparıq.*

*x-in yerinə ədədi qoyduğumuz zaman, birinci şərikin payını 9; ikincisinin 6, üçüncüsünün isə 2 olduğunu taparıq.*

*İndi riyaziyyat sayəsində insanların problemlərinin necə ədalətli şəkildə həll edildiyini və riyaziyyatı bilməklə insanların çətinliklərini aradan qaldırmağın savabı və ya bilməyərək, onlar arasında haqsız bölgü aparmaq arasındakı fərqi anlaya bildinizmi? Ədalətlə davranmaq, başqalarının çətinliklərini aradan qaldırmaq, yalnız bu dünyada deyil, axirətimizdə bizdən soruşulacaq şeylərdəndir. Belə deyilmi?*

*Bizlər də Peyğəmbər (s) və İmamların (ə) yolu ilə gedərək, onları izləyib, onlar kimi həm riyaziyyat kimi elmləri, həm də bizi Yaradanı tanımaq üçün dini elmləri çox yaxşı bilməyimiz lazımdır...*

# XƏSTƏLİYİN FAYDALARI

### Tərbiyələndirmə:

Peyğəmbər (s): "Xəstəlik Allahın yer üzərində "şallağı"dır. Onunla bəndələrini tərbiyələndirir".

İmam Baqir (ə): "Bədən xəstələnməsə, tuğyan edər. Tuğyan edən bədəndə də xeyir yoxdur".

İmam Sadiq (ə) xəstələndiyi zaman belə dua edərdi: "Allahım! Bunu mənim üçün tərbiyə vasitəsi qərar ver, qəzəb (nişanəsi) yox".

Kəffarə (günahların bağışlanması):

Peyğəmbər (s): "Xəstəlik günahları məhv edir".

Peyğəmbər (s): "Allah hər kəsin bədənini bir bəlaya salarsa, həmin bəla onun günahlarının silinməsinə vasitə olar".

Peyğəmbər (s): "Göydən yağan yağış göyün üzünü saflaşdırıb təmizlədiyi kimi, xəstə də sağalanda, o cür günahlardan təmizlənər".

Kəramət və ehtiram:

Peyğəmbər (s): "Xəstəliklər Allahın bəndəyə verdiyi hədiyyələrdir. Allahın ən sevimli bəndəsi ən çox hədiyyə qazanan şəxslərdir".

İmam Baqir (ə) və imam Sadiq (ə): "Xəstəlik və ya hər hansı bir dərdə görə bir gecəni oyaq qalmaq bir ilin ibadətindən daha üstündür və savabı var".

### Sağlam vaxtı etdiyin əməllərin savabı

Peyğəmbər (s): "Hər kəs xəstələnsə və ya səfər etsə, öz vətənində və sağlam halda edəcəyi əməllərin savabı qədər savabı var".

Peyğəmbər (s): "Bir müsəlman xəstələndikdə Allah mələklərinə əmr edər: Bu bəndə üçün sağlam vaxt etdiyi əməllərin ən yaxşısının savabını yazın!"

İmam Kazım (ə): Mömin bəndə xəstələndikdə Allah onun sol çiynindəki mələyə vəhy edər ki, "Bəndəm mənim həbsimdə olduğu müddətdə onun üçün heç bir günah əməlini yazma". Sağ çiynindəki mələyə də vəhy edər ki, "Bəndəm üçün sağlam vaxtı yazdığın yaxşı əməlləri indi də yaz".

### Xəstəliyin savabına aid hədislərin təhlili

Bəzi hədislərdə xəstəlikdə heç bir savabın olmadığı zikr olunur. Məs, Əlidən (ə) nəql olunur ki, buyurub: "Xəstəliyin savabı yoxdur. Amma o günahları yarpaq tökülən kimi tökür..." Deməli, xəstəliyin özündə o biri insani əməllərdə olduğu kimi, savab yoxdur. İmam Əlinin (ə) fikirincə, mömin xəstələndiyinə səbr edib yalvaranda, dua edəndə savab qazanar. Səbr etmək və dua insanın əməli olduğu üçün onlara görə dərəcələr artırılar, savab yazılar. Xəstəlikdə heç bir savabın olmadığını bildirən hədislərdə xəstəliyin özü nəzərdə tutulur, nəinki xəstənin əməl və niyyəti. Xəstə üçün savab yazıldığını, dərəcələrinin artırdığını göstərən hədislər isə onun səbrinin, müqavimətinin və niyyətinin savabına işarə edir.

### Xəstələrin vəzifələri

Peyğəmbər (s): "Müsibətləri, xəstəlikləri və sədəqəni gizlətmək ən böyük yaxşılıqdır".

Peyğəmbər (s): "Allah-təala buyurur: "Bəndəm şikayətlənsə və öz xəstəliyini üç gündən qabaq izhar etsə, deməli, məndən şikayət edib".

İmam Əli (ə): "Hər kəs ona yetişən xəstəliyi üç gün gizlədib yalnız Allaha şikayət etsə, Allahın boynunda haqqı var ki, ona xəstəliyindən şəfa versin".

İmam Əli (ə): "Yoxsulluğu və xəstəlikləri gizlətmək mürüvvətdəndir".

İmam Əli (ə): "Mənim qabaqlar Allaha xatir qardaşlıq etdiyim bir şəxs vardı. Onu mənim gözümdə böyüdən dünyanın onun gözündə kiçik olması, xəstəliklərdən ancaq sağalandan sonra şikayət etməsiydi".

### Xəstəliyi həkim yanında izhar etmək

İmam Əli (ə): "Hər kəs öz xəstəliyini həkimdən gizlətsə, bədəninə xəyanət etmişdir".

### Dözümlülük

Peyğəmbər (s): "Xəstənin iztirabları yazılar. Əgər səbr edən olsa, savab yazılar. Əks təqdirdə heç bir savabı olmayan səbirsizlik yazılar".

Peyğəmbər (s): "Hər kəs gecə və gündüz xəstələnsə və onu yoluxmağa gələnlərə şikayət etməsə, Allah onu Qiyamət günü dostu İbrahim Xəlilur-Rəhmanla (ə) bir yerdə qərar verər və körpünü parıltılı şimşək kimi keçər".

İmam Sadiqdən (ə) şikayətin həddi haqqında soruşulduqda buyurdu: "Kim desə ki, bu gün çox əziyyət çəkdim, gecəni əziyyətlə oyaq qaldım və hətta doğru desə belə, bu şikayət deyil". Şikayət odur ki, deyə: "Mən bir dərdə giriftar olmuşam ki, heç kəs o dərdə giriftar olmayıb. Mənə yetişən dərd heç kəsə yetişməyib".

Gecəni əziyyətlə oyaq qaldım, gündüz əziyyət çəkdim və bu kimi sözlər danışmaq isə şikayət deyil.

### Sədəqə vermək

Peyğəmbər (s): "Heç bir xəstə sədəqə verməkdən üstün olan bir yolla müalicə olunmayıb".

Peyğəmbər (s): "Xəstələrinizi sədəqə verməklə müalicə edin. O, sizdən xəstəliyi və bəlaları uzaqlaşdırar".

İmam Sadiq (ə): "Xəstə üçün bəyənilən haldır ki, öz əliylə dilənçiyə sədəqə versin və ondan dua etməsini istəsin".

### Dua etmək

İmam Əli (ə): "Mən xəstələndim. Peyğəmbər (s) məni yoxlamağa gəldi və dedi: "De! Allahım! Sənin tez şəfa verməyini, bəlalarına səbr etməyimi və Sənin rəhmətinə şamil olmağımı istəyirəm". Mən bu duanı oxudum və ayağa durdum, sanki düyündən açıldım".

M.M.Reyşəhri, "Tibbi hədislər toplusu"

# Peyğəmbər (s) məscidi

إِنّ الّذِينَ يَغُضُّونَ أَصْوَاتَهُمْ عِنْدَ رَسُولِ اللّهِ أُولَئِكَ الّذِينَ امْتَحَنَ اللّهُ قُلُوبَهُمْ لِلتّقْوَى لَهُمْ مَغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ

*Həqiqətən, Allahın Rəsulu (s) yanında səslərini aşağı salanların qəlblərini Allah təqva üçün sınamışdır. Onlar üçün bağışlanma və böyük bir mükafat vardır ("" Hucurat" surəsi, ayə 3).*



Mədinədə yerləşən Peyğəmbər (s) məscidi Kəbə evindən sonra İslam aləmində müsəlmanların üz tutub ziyarət etdiyi ikinci ən müqəddəs məkandır. Peyğəmbərin (s) şərif qəbrinin burada olması onun müqəddəsliyini daha da artırır.

Yəsrib şəhəri Peyğəmbərin (s) hicrətindən sonra "Mədinətul-nəbi" yəni "Peyğəmbərin şəhəri" adlandırılmışdır. Sonralar qısa olaraq Mədinə adı ilə məşhurlaşmışdır. Həzrət Rəsul (s) Məkkədən xaric olduğu zaman üzünü Allah dərgahına tutub buyurur: "İlahi, necə ki məni ən çox sevdiyin torpaqdan ayırdın, elə də özünün ən çox sevdiyin torpaqda yerləşdir". Bu kimi dualardan Mədinə şəhərinin şərafəti, müqəddəsliyi aydınlaşır. Peyğəmbər (s) Mədinəyə daxil olduğu zaman şəhər sakinlərindən hər biri onu öz evinə qonaq etmək şərəfinə nail olmaq istəyində idilər. Ancaq Peyğəmbər (s) buna razı olmayaraq buyurdu: "Dəvəm harada otursa, orada məskunlaşacağam". Peyğəmbərin (s) dəvəsi indiki məscid olan yerdə oturur. Peyğəmbər (s) həmin yeri sahibindən alaraq məscidin bünövrəsini qoyur. Nəhayət bütün səhabələr böyük həvəs və şərəflə məscidin tikintisinə başlayırlar.

Beləliklə, Peyğəmbərin (s) Mədinədəki ilk gördüyü iş məscidin tikilişi oldu. Ancaq sonralar məscidə əlavələr olunaraq Peyğəmbərin (s) zamanındakı kiçik və sadə məscid daha da genişləndirilmişdir.

Peyğəmbərin (s) zamanında olan tikililərdən biri də məscidin kənarındakı otaqlar idi. Bu otaqlar Peyğəmbər (s), onun qadınları və səhabələri üçün nəzərdə tutulmuşdur. Bu otaqların hər birindən məscidin içinə qapı açılırdı. Ancaq hicrətin üçüncü ili İlahi göstərişə əsasən həzrət Əlinin (ə) qapısından başqa məscidə açılan bütün qapılar bağlanır. Hicrətin on yeddinci ilində müsəlmanların artması səbəbilə məscidin artırılmasına ehtiyac duyulur. İkinci xəlifə 1100 m2-lik sahəni 3500 m2-dək genişlədir. Hicrətin iyirmi doqquzuncu ili üçüncü xəlifənin dövründə daha da genişlənərək 4041 m2-ə çatır. Xəlifə Vəlid ibn Əbdulməlikin dövründə isə bir daha genişlənərək 6400 m2-ə çatdırılır. Hicrətin 654-cü ili Abbasilərin dövründə və 886-cı ildə bu məscid yanmış və bir çox qüsurlar yaranmışdır. Birinci yanğının qüsurlarını Məhəmməd ibn Təlavun və ikinci yanğının qüsurlarını isə Məmalik təmir etdirmişdir. Bu dəfə məsciddən karvansara, mədrəsə, aşpazxana tikilərək 9100 m2-ə çatdırılır. Nəhayət Peyğəmbərin (s) məscidi Səudilərin dövründə daha da genişlənərək 4005000 m2 yəni Mədinənin Peyğəmbər (s) əsrindəki bütün ərazisinə bərabər olmuşdur. Allah Rəsulunun (s) xatirəsi məscidin hər bir güşəsinə xüsusi mənəvi təsir bağışlayır. Məscidin bu hissəsinin hər biri haqqında müxtəsər izah veririk.

**Rozeyi-şərifə**

Bu hissə məscidin çox fəzilətli yeri olaraq "Rozeyi-mutəhhərə" ("pak bağ"), "Rozeyi-şərifə" ("şərif bağ"), "Rozeyi-behişti" ("behişt bağı") adları ilə tanınmışdır. Bu hissədə üç müqəddəs məkan yerləşmişdir: Allah Rəsulunun (s) pak qəbri, onun minbəri və mehrabı.

Məscidin müqəddəs məkanlarından biri də həzrət Rəsulun (s) minbəridir. Minbər Peyğəmbərin (s) zamanında üç pillədən ibarət olub. Sonralar ona daha bir neçə pillə artırılmış və on iki pillə olmuşdur. Zaman ötdükcə minbər aradan gedir və onu indiki minbərin yerləşdiyi yerdə torpağa tapşırırlar. Hal-hazırda məsciddəki minbər qəməri 998-ci ildə sultan Murad Osmaninin sifarişi ilə tikilmiş qiymətli əsər kimi saxlanılmaqdadır.

Məscidin mehrabı Peyğəmbərin (s) namaz qıldığı məkanda tikilmişdir. Burada bəzi başqa xəlifələrin də mehrabı yerləşir. Bu mehrablardan ən mühümü "təhəccüd mehrabı"dır. Təhəccüd - gecə oyaq qalmaq mənasındadır. Bura həzrət Fatimənin (ə) evinin arxası və Peyğəmbərin (s) gecə namazı qıldığı məkandır.

**Məscidin sütunları**

Məscidin tavanını qoruyan sütunlarla yanaşı Peyğəmbər (s) və səhabələrinin istifadəsində olan sütunlar da mövcuddur. Bu sütunların hər biri özünə xas xatirəyə malik olduğundan müqəddəs və mübarək sayılır.

Hərs sütunu - Həzrət Əli (ə) bu sütunun kənarında duraraq Allah Rəsulunu (s) qoruyardı. Bu sütun "Əli müsəllası" adı ilə məşhurlaşmışdır.

Tövbə sütunu - Bu sütun Peyğəmbərin (s) səhabələrindən biri olan Əbu Lubabənin xatirəsi ilə bağlıdır. O, Xəndək müharibəsində xəta işlədərək yəhudi və müsəlmanların münasibətini daha da kəskinləşməsinə səbəb olmuşdur. Bu səbəbdən də özünü bu sütuna bağlayaraq ağlamağa başlamışdır. Allah da onun tövbəsini qəbul etmişdir.

Vüfud sütunu - "vüfud" heyət nümayəndələri mənasındadır. Peyğəmbər (s) öz səhabələri ilə bu sütunun kənarında yığışaraq siyası və ictimai məsələləri həll edirdi.

Sərir sütunu - "sərir" taxt mənasındadır. Peyğəmbər (s) etikaf zamanı bu sütunun kənarında dincəlirdi.



Mühacir sütunu - mühacirlər bu sütunun kənarında oturaraq bir-birilə söhbət etdiyindən sütun onların adı ilə bağlıdır.

Hənanə sütunu - Peyğəmbər (s) xurma ağacına söykənərək xütbə oxuyardı. Minbər tikilən zaman bu ağacdan dəvə naləsi tək səs ucaldı. Bu rəvayəti Peyğəmbərin (s) yüzdən çox səhabəsi nəql etmişdir.

**Suffə**

Məkkə müsəlmanları Mədinəyə hicrət edən zaman onların bir hissəsi ənsarilərin evlərində məskunlaşmışdılar. Məkkəlilərin bir qismi isə Suffə adlanan yerdə gecələyirdilər. Onlar Bilal, Əbuzər, Miqdad və başqa səhabələrdən ibarətdir.

**Cəbrail məqamı**

Həzrət Cəbrail (ə) məhz bu məkanda nazil olaraq Allah Rəsulunun (s) xidmətinə gəldiyindən bu məkan Cəbrail məqamı adı ilə tanınmışdır. Bəzi rəvayətlərə əsasən, həzrət Fatimənin (ə) qəbrinin burada olması ehtimalı da var. Bu yerin başqa bir fəziləti də vardır. Mübarək "Əhzab" surəsinin 33-cü ayəsi ("Təthir" ayəsi) nazil olduqdan sonra qırx gün sübh çağı Peyğəmbərimiz (s) bu məkanda, Həzrət Fatimənin (ə) evinin kənarında duraraq buyurardı: "Əssəlamu ələykum ya əhləl-beyt".

**Məscidin minarələri**

Məscidin ilk tikilişindən Vəlid ibn Əbdul Məlikin zamanınadək heç bir minarəyə malik olmayıb. Hal-hazırda məsciddə dörd əsas minarə mövcuddur.

Həzrət Peyğəmbərin (s) bu mübarək məscidi, Məscidul-Həramdan sonra ən şərafətli məkan hesab olunur. Allah Rəsulu (s) burada olunan ibadətin fəziləti haqqında belə buyurmuşdu: "Mənim məscidimdə qılınan bir namaz, Məscidul-Həramdan başqa qalan məscidlərdə qılınan namazdan min dəfə fəzilətlidir".

# SUAL CAVAB



*Sualları Ustad Ənsariya-nın nəzərinə əsasən cavablandırmışdır*

## Allah tərəfindən göndərilmiş dinin xüsusiyyətləri nədir?

**Cavab:**

1- Göndərilmiş din ilahi elçilərin sayı qədərdir.

2- Göndərilmiş din bəşəriyyətin ilahi fərman və göstərişlərə ehtiyaclı olmasını göstərir.

3- Göndərilmiş dinin tanınması yolu mötəbər nəqldir. Əgər əqli yolla bir şey əldə edilərsə və bu məsələ nəqli yolun dəlillərinə oxşar olarsa, onu da qəbul etmək olar. Belə dəlili, əslində nəqli dəlilin müqəddiməsi kimi hesab etmək olar.

4- Göndərilmiş dinin peyğamı, peyğəmbərlər vasitəsilə insanlara çatdırıldığından, onda ilahi elçilərin mənəvi məqamlarının səciyyəvi xüsusiyyətləri, o dövrün insanlarının xüsusiyyətləri və imkanları, həmçinin, zaman və məkan şəraitinə bağlıdır.

**İzahlı cavab:**

1) Dinlərin həqiqi tarixi, Quran və onda olan tarixi faktlar və dəlillər həqiqətdə Allah tərəfindən göndərilmiş dinlərin sayının ilahi elçilərin sayı ilə birbaşa bağlı olduğuna şahiddir. Bu bəhsdə ilahi elçidən məqsəd “şəriət sahibi və təbliğə məmur olunan peyğəmbər” nəzərdə tutulur.

2) Allah tərəfindən göndərilmiş din bəşəriyyətin ilahi göstərişlərə ehtiyacı olmasını göstərir. Məhz buna görə də müxtəlif zaman və məkanların tələblərinə uyğun olaraq bu ilahi peyğəmbər təzələnir. Doğrudur ki, göndərilmiş dinin kökü və əsli özlüyündə fitrətdən gələn dindir və din öz-özlüyündə zaman və məkana tabe deyildir, amma Allah tərəfindən göndərilmiş din hər bir əsr, zaman və məkana uyğun olaraq yeni insan nəsillərini nəzərə alır və xüsusi məfhumlarla bütün dünyaya şamil olur. Başqa tərəfdən, göndərilmiş dinin öz-özlüyündə olan dinin bir qismini və ya hamısını özündə nümayiş etdirməsi də mümkündür.

3) Allah tərəfindən göndərilmiş dinin tanınması yolu - mötəbər nəqldir. Əgər hər hansı bir şey əqli yolla ələ gələrsə və bu məsələ nəqli yolun dəlillərinə oxşar olsa onu da qəbul etmək olar. Belə dəlili, əslində nəqli dəlilin müqəddiməsi kimi qələmə vermək olar. Əlbəttə, əqlin təklikdə, öz-özlüyündə nəqli dəlilin mətləblərini aşkarlamış olması çox uzaq nəzərə gəlir. Yəni, əql öz-özlüyündə ilahi elçiyə nəyin həvalə edilməsi və insanlara nə çatdırmasını sonradan bəzi amillərin nəticəsində o göstərişin bizə yetişməməsini kəşf etməsi çox uzaq nəzər gəlir.

Hər halda əgər belə bir hadisə baş vermiş olsa, onda bu da əqlin aşkarladığı məsələni Allah tərəfindən göndərilmiş dinin dəlili ilə münasib olmasını tutuşdurub nəqli dəlilin ətrafında istifadə etmək olar.

4) Allah tərəfindən göndərilmiş dinin peyğamı, peyğəmbərlər vasitəsilə insanlara çatdırıldığından, onda, ilahi elçilərin mənəvi məqamlarının xüsusiyyətləri, o dövrün insanlarının göstəriciləri və imkanları, həmçinin, zaman və məkan şəraitinə bağlılığı var. Peyğəmbərin mənəvi məqamı nə qədər yüksək səviyyədə olsa, həqiqi dindən (yəni, Allah yanında lövhi məhfuzda olan dindən) vəhy yolu ilə ona daha çox hidayət yolları almaq da bir o qədər münasib olar. Həmçinin, o peyğəmbərin dinləyiciləri olan insanların mədəni-maarif səviyyəsi və istedadları nə qədər yüksək olsa zaman və məkan baxımından onlar da həqiqi dindən (yəni, Allah yanında lövhi məhfuzda olan dindən) daha çox bəhrələnəcəklər.

## Xatəm dinin kamil olmasını necə isbat etmək olar?

**Cavab:** Əvvəla, “kamil” kəlməsinin mənasını izah etməyi lazım bilirik. “Kamil” “naqis”in (nöqsanlının) müqabil nöqtəsi və antonimidir. Ümumiyyətlə, islamın kamil bir din olduğunu dediyimiz zaman məqsədimiz budur ki, onda heç bir nöqsan yoxdur. Daha aydın desək, bu din dünya və axirətdə səadətli həyatın tələb etdiyi hər bir şeyə malikdir. Deməli, bu din bütün əsr və zamanlarda, eləcə də insan həyatının bütün yönlərində güclü və qurucu bir proqrama malik olmalıdır.

Yuxarıdakı sualın cavabının əsası “xatəmiyyət” bəhsindədir. Yəni islam dininin kamil olması ilə (əvvəlki ilahi dinlərin) xətm edəni olması bir sikkənin iki üzü kimidir. Çünki, əgər islam dininin bütün dinlərin xətm edəni olduğu sübuta yetərsə, deməli, qiyamətə qədər onların ən kamili də olmalıdır. Belə ki, kamil olmamasının mənası budur ki, onda nöqsanlı hallar vardır və nöqsanlı halın varlığı ilə insanları səadət və kamala doğru layiqincə hidayət edə bilməz. Bu da ilahi ədalətlə zidd, Allah-taalanın tərəfindən qəbahətli sayılan bir işdir. Deməli, gərək islam dini insanın (kamala doğru) hidayəti üçün lazım olan hər bir şeyə malik olsun ki, bütün insanlar üçün dəlil-sübut və höccət tamamlanmış olsun.

# Dinlərin sonuncusu necə dindir?

**Cavab:** Sonuncu din - Allah tərəfindən sonuncu olaraq göndərilmiş dindir. Yəni, belə bir dinin zühurundan sonra təzə din və peyğəmbərin göndərilməsi mümkün deyildir. Deməli, sonuncu dinin peyğamı, proqramı bütün ilahi elçilərin peyğam və proqramından üstündür və onun dinləyicisi Qiyamətə qədər bütün əsr və zamanlarda olan insanları əhatə edir. Belə bir din bütün dinlərdən kamil və həqiqi dindən (yəni, Allah yanında lövhi məhfuzda olan dindən) vəyh vasitəsi ilə mümkün olan qədər yararlanan olmasıdır.

Beləliklə, sonuncu dində vəhy yolu ilə insanlara göndərilmiş hər bir şey olmalıdır. Belə bir dinin göndərilməsi ilə Allah tərəfindən göndərilmiş digər dinlərin hamısı qüvvədən düşür, dinlər silsiləsi bununla sona çatır.

Kamil dinin əsas xüsusiyyətlərindən biri onun sonuncu olmasıdır. Belə bir dinin digər şərti də təhrifdən uzaq olmasıdır. İslamda dinin təhrifdən uzaq olmasını iki amillə təmin olunur:

1. Dini maarif və göstərişlərinin əsl mənbəyi olan Quran təhrifdən uzaq olmuş olsun.

2. Bu mənbənin təhrifdən uzaq olması meyarı isə məhz Əhli-Beyt (ə) məktəbinin təfsiridir. Elə bir təfsir ki, onların şagirdlərinin vasitəsi ilə nəsildən-nəslə keçərək, hər bir zamanədə ictihad və qanun şəkilində meydana çıxmışdır. "Meyar yolu" dedikdə məqsəd elə bir meyardır ki, başqa yollar onunla tutuşdurulur, müqayisə edilir. Beləliklə, Əhli-Beyt (ə) məktəbi tarix boyu bütün zaman və məkanlardan ötrü müəyyən meyar və qanunlar təyin etmişdir ki, bunların vasitəsi ilə dinin əsasları, üsul və qanunları həmişə qorunub saxlanılmış və kamil dində dəyişiklik olmamışdır.

# Dinlə mədəniyyətin əlaqəsi nədir?

**Cavab:** "Din" lüğətdə "itaət etmək", "tabe olmaq", "təslim olmaq" və "cəza" mənasınadır. Termində isə, "cəmiyyəti idarə etmək və insanlara təlim-tərbiyə vermək üçün mövcud olan əqidə, əxlaq və qanunlar məcmusu"ndan ibarətdir. Din bəzən haqq, bəzən batil, bəzən də haqq ilə batilin qarışığından ibarət ola bilər.

Mədəniyyət mənasında olan farsca "fərhəng" kəlməsi iki hissədən: "fər" və "həng"dən təşkil olunmuşdur. "Fər" əzəmət və şövkət mənasınadır, əgər şəkilçi kimi işlədilərsə, "irəli" və "çöl" mənasındadır. "Həng" isə Avesta kökündə "çəkmək", "ağırlıq" və "vüqar" mənasınadır. Mürəkkəb "fərhəng" kəlməsi "yuxarı qaldırmaq" və "irəli çəkmək" mənasınadır.

"Fərhəng" (mədəniyyət) kəlməsinin termində müxtəlif mənaları vardır. Belə ki, onun dəqiq şəkildə araşdırılması çox çətindir. "Fərhəng" məfhumu özünün tarixi inkişafında müxtəlif mənalar kəsb etmişdir. O cümlədən: ədəb, tərbiyə, mərifət, adət-ənənə, təlim-tərbiyə məcmusu, məktəb və ideologiya.

Sosioloqların bəzisi inanır ki, mədəniyyət cəmiyyətin kütləvi şəkildə olan təfəkkür tərzidir ki, ictimai hadisələrdə və rəftarlarda cilvələnir, bütün iqtisadi, ictimai, siyasi, hərbi, maddi və mənəvi işləri öz təsiri altına alır.

Dinlə mədəniyyətin mənasına, eləcə də bu ikisinin əsaslarına və hədəflərinə diqqət yetirməklə, habelə dinlə mədəniyyətin ifa etdiyi rola, təsirlərə, bu ikisinin arasında mövcud olan müştərək cəhətlərə diqqət yetirməklə belə nəticə almaq olar ki, bu ikisinin arasında daim sıx və qırılmaz əlaqə olmuş, din insanın mədəniyyət və sivilizasiyasında təsirli rol ifa etmiş, mədəniyyət də insanların maddi və mənəvi həyat fəaliyyətlərindən layiqincə bəhrələnməsinə səbəb olmuşdur. Bu da düzgün dərk tərzinə və ali hisslərə istinad etməklə əql yönlü həyatda insana yardım edir və insanın təkamül amili olur. Həmçinin, din və mədəniyyət özünün üç hədəfli sistemini təqdim edir və onlardan istifadə edildiyi təqdirdə insan üçün inkişaf və təkamül yolunda çox böyük dəyişikliklərin amili ola bilər.

# Həqiqi dini necə əldə etmək və onun həyatverici proqramından agah olmaq olar?




**Cavab:** Bu sahədə üç yol təsəvvür olunur:

1) Vəhy
2) Nəql
3) Əql

Adi insanlar yalnız, nəqli və əqli yolla dinin həqiqətinə vara bilərlər. Xüsusi insanlardan ötrü vəhy yolu da açıqdır.

Bu haqda üç yol təsəvvür olunur:

A) Allah-taala dinin həqiqətinin bir qismini izhar edər. Peyğəmbərlər bu yolla dinin həqiqətini əldə edir və vəhy yolu ilə bəyan olunmuş hər şey onlara aydın olar.

B) Vəhy yolu ilə bəyan olunmuşlar bizə nəqli yolla çatır və biz də bu yolla dinin həqiqətini ələ gətiririk.

V) İnsanın əqli bəzi əqli dəlil və nişanələr vasitəsi ilə həqiqi dinin bəzi ünsürlərini ələ gətirir və ona agah olur.

Beləliklə, adi insanlar yalnız nəqli və əqli yolla dinin həqiqətinə vara bilərlər. Xüsusi insanlardan ötrü vəhy yolu da açıqdır. Şübhəsiz ki, nəqli və əqli yolla ələ gələn məlumatda xəta ola bilər. Amma, məsum (günahsız) şəxsə olunan vəhy xətadan uzaqdır.

# İBRƏTDOLU

## ALLAHIN SEVİMLİ QULU

Allahın sevimli qullarından biri bir yuxu görür; yuxusunda ona belə deyilir:

"Səhər olunca, qarşına ilk çıxanı ye, ikinci çıxanı saxla, üçüncü çıxanın diləyini qəbul et, dördüncü gələni üzmə, beşincidən də qaç!"

Səhər oldu; çölə çıxdı. Yola qoyulub getdi. Qarşısına bir dağ çıxdı. Bu böyük dağı görüncə çaşdı.

Öz-özünə belə dedi: Rəbbim mənə bunu yeməmi əmr etdi.

Sonra belə dedi: Rəbbim mənə gücümün çatmayacağı bir şeyi əmr etməz. Onu yeməyə qərar verdi.

Dağa doğru getdi. Yaxınlaşdıqca dağ kiçildi. Tam yaxınlaşdığı zaman böyük dağ bir loxmaya

çevrilmişdi. Onu tutub yeddi, baldan şirindi. Allaha həmd etdi, yoluna davam etdi.

Qarşısına qızıldan bir ləyən çıxdı. Belə dedi: Rəbbim, bunu da saxlamamı əmr etdi.

Bir çuxur qazdı, onu basdırdı. Getdi, az getdikdən sonra dönüb baxdı.

Ləyən torpaq yüzünə çıxmışdı. Geri döndü, təkrar basdırdı. Bir az getdi; baxdı ki, yenə çıxmış bir daha basdırdı, yenə torpaq üstünə çıxdı.

Öz-özünə, "Mən əmr ediləni etdim." deyərək buraxıb getdi. Qarşısına bir quş çıxdı. Arxasından bir şahin onu qovurdu. Quş ona belə dedi: "Ey Allahın sevimli qulu,

məni gizlət. Mənə kömək et." Onu götürdü. Qoynuna gizlətdi. Arxasından şahin gəldi;

belə dedi: "Ey Allahın sevimli qulu, mən acam. Səhərdən bəri də bu quşun arxasındayam.

Onu tutmaq istəyirəm. Qismətimə mane olma. Öz-özünə belə dedi:

"Üçüncünün diləyini etməm əmri verildi, etdim. Dördüncünü üzməməyim əmr edildi.

İndi nə edəcəyəm? Bu işə çaşdı. Sonra bıçaq götürdü; özündən bir parça ət kəsdi, şahinə atdı; o da qapıb qaçdı. Daha sonra quşu buraxdı. Bundan sonra, çıxıb getdi.

İylənmiş bir leş gördü. Onu da buraxıb qaçdı. Axşam olunca bu duanı etdi:

"Ya Rəbbi, əmrini yerinə yetirdim. Bu işlərin mənası nə isə mənə bildir."

Daha sonra, yuxusunda belə izah edildi:

"Birinci görüb yediyin hirsdir. Əvvəl böyük bir dağ kimi

görülər; səbirlə hirs udulsa, baldan şirin olar. İkincisi yaxşı əməlindir.

Nə qədər saxlasan saxla; yenə meydana çıxar. Üçüncüsü, sənə buraxılan bir əmanətdir,

ona xəyanət etmə. Dördüncüsü budur: Bir insanın sənə bir diləyi çatsa,

onu yerinə yetir; istəsə sənə lazım olan bir şey olsun. Beşincisi qeybətdir.

İnsanların qeybətini edənlərdən qaç. Şübhəsiz hər şeyi bilən Allahdır."

## NURLA BİRGƏ

Müqəddəs Ərdəbilinin təqvalı, inanılmış və etibarlı şagirdlərindən biri belə hekayət edir:

Həzrət Əlinin (ə) hərəminin həyətində kiçik bir hücrəm vardı. Gecələrin birində mütaliəni başa vurub hücrədən çölə çıxdım. Gördüm ki, bir şəxs hərəmə yaxınlaşır. Öz-özümə dedim: Bəlkə, oğrudur. Beləcə yavaş-yavaş ardınca düşdüm, belə ki, mən onu görür, o isə məni görmürdü. Gəlib hərəmin qapısının qarşısında dayandı. Birdən qıfıl yerə düşdü və qapı açıldı. Ardınca ikinci qapı da açıldı. O şəxs zərihə yaxınlaşıb salam verdikdə qəbirdən salamın cavabını eşitdim. Səsindən tanıdım ki, öz ustadımdır. Sonra o İmamla (ə) danışmağa başladı. İmamdan (ə) elmi bir məsələ haqda nə isə soruşurdu. Sonra hərəmdən çıxıb şəhərdən xaric oldu və Kufə məscidinə tərəf yollandı. Mən də dalınca getdim. O, hələ də məni görmürdü. Kufə məscidinin mehrabına yaxınlaşdığım zaman səsini eşitdim ki, bir şəxsə həmin məsələ haqda danışır. Sonra oradan çıxıb Nəcəfə yollandı. Mən də arxasınca yola düşdüm. Nəcəfin darvaza qapısına çatanda artıq səhər açılırdı. Amma o, hələ də məndən xəbərsiz idi. Ona yaxınlaşıb dedim:

Mən əvvəldən axıradək sizinlə idim. Hərəm və Kufə məscidində sizinlə danışanın kim olduğunu mənə söyləyin. O, mənimlə əhd kəsdi ki, sağlığında bu haqda heç kimə bir söz deməyim. Sonra belə dedi:

Ay oğul, bəzən məsələlərin düz və ya səhv olması məndə şübhə yaradır. Buna görə də, çox vaxt, gecələr Həzrət Əlinin (ə) qəbri üstə gedib həmin məsələni İmamdan soruşuram və o da cavab verir. Bu axşam o həzrətdən bir məsələni soruşdum. Həzrət Əli (ə) məni İmam Mehdinin (ə) yanına göndərdi. Dedi ki, bu gecə övladım Mehdi (ə) Kufə məscidində olacaq. Onun hüzuruna gedib bu məsələni ondan soruşarsan. Kufə məscidində gördüyün o şəxs İmam Mehdi (ə) idi.

## YARIN BAĞINDA

"Miftahül kəramət" kitabının müəllifi mərhum Seyyid Cavad Amuli belə deyir:

Gecələrin birində gördüm ki, Seyyid Bəhrul-Ülum Həzrət Əlinin (ə) hərəminin çöl qapısını açıb içəri girdi və hərəmə tərəf getdi. Mən də onun arxasınca düşdüm. Salonun qapısı qıfıllı olduğuna baxmayaraq onun üzünə açıldı. Hərəmin qapısının qıfılı da öz-özünə açıldı. Seyyid hərəmə daxil olub cəddinə salam verdi və qəbirdən salamın cavabını aldı. Mən qorxduğum üçün daha geri qayıtdım.

Həmçinin Seyyid Cavad Amuli belə nəql edir:

Bir axşam Seyyid Bəhrul-Ülumu Kufə məscidində Həzrət İmam Zaman (ə) ilə danışdığını gördüm. O, İmam Zamandan (ə) bir məsələ haqda soruşduqda, Həzrət buyurdu:

Sizin vəzifəniz zahiri dəlillərlə kifayətlənməkdir və batini həqiqətlər sizə aid deyil.

# O BİRİ DÜNYA HAQQINDA

Bir qız! Sanki bu dünyada hər şey ona məxsus! Pul, şan-şöhrət, əhli-keyf! Hər gün-bu günün ibadətini sabaha saxlayan özündən razı qız! «Onsuz hələm ömrümə var» deyərək öz işində idi! Yenə bir gün! Hava sakit! Günəş buludlar arasında sanki acı gülümsəyirdi! Yenə eyni yol! Yenə həmin qız gözəl bir maşında! Sürət norması yenə yüksək! Gözlənilmədən böyük bir qəza! Artıq hər şey qaranlığa qərq oldu! Bu dünyada keyf çəkən indi tabutda çiyinlərdə gedir!

*Anası:* Balam, balam, balam gəncliyinin dadından doya bilmədən getdi. Nə tələsiyin vardı? Axı səni nə vadar etdi bu yüksək sürətlə sürmək?

**Bacısı** :Canım bacım sən o murdar torpağa layiq olacaq qız deyilsən! Dön geri,dön!

**Bacısı böyük qardaşa**:yetər yetər bu etdiyiniz axmaqlıq, nə zaman həqiqəti anlayacaqsınız? Nə zaman bu küfrləriniz sona çatacaq? Susun, susun. Ah bacı, sən dünyada ikən haqqı tapsaydın, kaş ki, sən də imanın nuru ilə nurlansaydın! Rəbbim səni bağışlasın. Cənnətinə girməyini nəsib etsin!

**Qız qardaşı:** Of yenə nə Rəbb deyərək qışqırırsan?

Tabut çiyinlərdə gedir! Müəllim,qohum, qonşu, əzizlər, dost-lar və daha kimlər! Hər kəs ağlayırdı! Amma faydası yox idi! Artıq o getmişdir!

Dünyada ikən Allahdan başqa heç bir ilah yoxdur Məhəmməd(s) onun rəsuludur deyə etdiyin şahidliyi xatırla! Xatırla ki, cənnət haqdır, cəhənnəm haqdır, öldükdən sonra dirilmək haqdır. Qiyamət heç şübhəsiz gələcəkdir və Allah qəbirlərdə onları di-rildib hər kəsdən etdiyi əməllərə görə hesabat tələb edəcəkdir!

Sən rəbb olaraq Allaha, din olaraq İslama, peyğəmbər olaraq Məhəmmədə (s), Rəhbər olaraq Qurani-Kərimə qiblə olaraq Kəbəyə razı olmuş, qardaş olaraq mömінləri seçmişdin. Rəbbim ALLAHdır. Ondan başqa heç bir ilah yoxdur. Yalnız ona təvəkkül etdim. O böyük ərşin sahibidir demişdir.

**Qız qəbirdə tək qalar:**

**Qız:**Anacığım, yandırın bu işıqları! Ah bura çox qaranlıq, yandırın işıqları çox qorxuram, bura niyə qorxulu və soyuq? Mən ölmüşəm?! Ah anacığım, atacığım mən ölmüşəm! Ana məni yanına götür çox üşüyürəm. Dünyada olarkən niyə mənə buraların varlığından bəhs etmədiniz? Nə üçün oruc tut demədiniz? Niyə dinimdən bəhs etmədiniz? Niyə cihadı izah etmədiniz? İndi, indi bura çox soyuq ana, canım yanır ana. Ah Rəbbim, kaş ki, Sənin sözlərinə qulaq versəydim. Bir gün olsa idi ki, səni dinləyərdim. İndi bura çox qaranlıq altımdan daşlar batır, tikənlər batır, quru torpaq bədənimi sıxır, böcəklər, böcəklər Allahım! Ana qurtarın məni bu boğucu qaranlıq torpaqdan. Dözə bilmirəm, dözə bilmirəm. Ana, ata həmişə çətin anlarda mənimlə idiniz! İndi haradasınız?

Sağ və Sol MƏLƏYİ GƏLİR

MƏLƏK**:** Ey qız söylə Rəbbin kim?

-Bilmirəm.

MƏLƏK**:** Rəbbin kim?

-Rəbbim Allah

MƏLƏK: Söylə dinin nə?

-Bilmirəm

MƏLƏK: Kitabın nə?

-Heç görmədim ki.

MƏLƏK: Peyğəmbərin kim?

-Heç eşitmədim ki.

MƏLƏK: Söylə qız dünyada ikən nə üçün namaz qılmadın?

-Uşaqlarımdan vaxt tapa bilmədim.

MƏLƏK: Adəmdən (ə.s) çox uşağın vardı mı? Onun hər il əkiz uşağı olurdu. Amma dinində heç laqeydsizlik olmadı.

-O qədər çox malım mülküm vardı ki, namaz etməyə fürsət tapa bilmədim.

MƏLƏK: Hz. Süleymandan (ə) dahamı çox malın vardı?

-Həm də o qədər çox xəstəydim ki dərdimdən namaz qıla bilmədim.

MƏLƏK: Əyyubdan (ə) dahamı çox dərdli idin? Halbuki onun dərdi o qədər böyük idi ki, bədənində yara olmayan yer qalmamışdı. İndi sən sus ey qız!

Şahidlərin danışacaq. Söyləyin ey ayaqlar bu qul dünyada sizi nəylə məşğul etdi?

AYAQ: Bu qul məni Allahın məhrum etdiyi yerlərə və əxlaqsızların olduğu məkanlara apardı. Heç bir xeyir məclisində olmadı!

MƏLƏK: Siz söyləyin əllər siz hansı haldan şikayətçisiniz?

ƏLLƏR: Bəli ey mələk, biz də şikayətçiyik. Çünki bu qul haram olan şeylərə əlini uzatdı, Allahın qadağan etdiyi əllərlə qucaqlaşdı.

MƏLƏK: Sən söylə ey dil, bu qul səni dünyada ikən necə istifadə etdi?

DİL: Ey mələk, bu qulun ağzından heç pis və çirkin söz çıxmadı. Lakin heç bir yaxşı söz də söyləmədi.

MƏLƏK: Yaxşı sən söylə ey ürək bu qul sənə nə etdi?

ÜRƏK: Ey mələk bu qul mənim içimdə heç bir möminə qarşı kin bəsləmədi. Heç bir zaman kinlik etmədi.

MƏLƏK: Siz ey gözlər bu quldan şikayətçisinizmi?

GÖZLƏR: Bəli, ey mələk çünki bu qul ona verilən böyük nemət qarşılığında harama baxmaqdan çəkinmədi.,

MƏLƏK: Ey mələklər, bunu aparın cəhənnəmə atın.

Qız: Xeyr durun nə olar, Allah eşqinə aparmayın məni o cəhənnəm atəşinə, durun, nə olar sizə yalvarıram, bir şans daha istəyirəm yalvarıram...

KİRPİKLƏR: Durun, durun, aparmayın onu.

MƏLƏK: Siz nə demək istəyərsiniz ey kirpiklər?

KİRPİKLƏR: Bəli ey mələk bu qul dünyada ikən harama baxdı, haram yedi, haram olan yerlərə getdi. Amma buna bax-mayaraq bir gecə Allah(c.c) eşqi ilə, iman toxumlarının verdiyi sevgi ilə böyük bir səmimiliklə ağlamışdı. Halbuki Allah təala; «Mənim üçün bir damla gözyaşı tökənə cəhənnəm haramdır» buyurmayıbmı?

MƏLƏK: Ey qul, uca Allah səni bağışladı cənnətlik-lərdənsən...

# Sadiq səhabə, Şəhidlərin ağası

***İslam tarixinin böyük şəxsiyyətlərindən olan, Quranı və İslam dinini müdafiə etmək yolunda fədakarlıq etmiş, Həzrət Peyğəmbərin (s) çətin zamanlarında onun himayəçisi və müdafiəçisi olmuş Həmzə ibn Əbdulmüttəlib, Əmirəl-möminin (ə) kimi şirkin bayrağı qarşısında tövhid bayrağını ucaltmış və imanını döyüş meydanında nümayiş etdirmişdir. Həmzə Quran və Məsumlardan (ə) gələn hədislərdə daima tərifəlayiq hesab edilmiş və təriflənmişdir. Peyğəmbəri- Əkrəm (s) ona "Seyyidi-şühəda" rütbəsini vermiş və "Əsədullah" və "Əsədi-Rəsul" kimi ləqəblərə layiq görmüşdür. Həzrət Həmzənin künyəsi Əbu Əmmarə və Əbu Yəala idi. Anası Halə Peyğəmbərin (s) anası Aminənin əmisi qızı idi.***

Həzrət Həmzə Peyğəmbərin (s) əmisi idi və hər ikisi Suyibe adlı bir qadından süd içmişdilər. O, Peyğəmbərdən (s) iki yaş böyük idi. Tarixçilərin dediyinə görə, Həmzə besətin ikinci ilində İslam dinini qəbul edir. Düşmənləri də başa düşür ki, bundan sonra Peyğəmbərin (s) gücü artmışdır və İslam dinini güclü bir insan müdafiə edəcəkdir. Ona görə də müsəlmanların əleyhinə düşündükləri bir çox fitnələrdən əl çəkdilər.

Həmzə Həzrət Peyğəmbərlə (s) eyni zamanda Mədinəyə hicrət edir, ilk mühacirlərdən olur. O, İslam dininin ilk bayraqdarı olmuşdur. Bədr döyüşündə düşmənləri vəlvələyə salır. Onu görənlər soruşurlar ki, bu kimdir və onlara deyəndə ki, bu Həmzədir, onlar deyirdilər ki, bu o insandır ki, sıralarımızı darmadağın etmişdi və günümüzü qaraltmışdı. Həzrət Həmzə hicrətin üçüncü ilində Uhud döyüşündə düşmənin 31 nəfərini öldürəndən sonra şəhadət məqamına nail olmuşdu.

Qurani-Kərim Həzrət Həmzə haqqında buyurur: "İman gətirib hicrət edənlər, Allah yolunda cihad edənlər və (mühacirlərə) sığınacaq verib köməklik edənlər - həqiqi möminlərdirlər". ("Ənfal" 74). "Sizin içinizdən fəthdən (Məkkə fəthindən) qabaq infaq edən və cihad edən kimsələr, əlbəttə, ayrıları ilə bir olmazlar. Bunlar, fəthdən sonra infaq edib cihad edənlərdən dərəcə etibarı ilə daha yüksəkdirlər". ("Hədid" 10). Bəli, bu ayələrdən göründüyü kimi, təfsirçilərin fikrinə görə Həmzədən bəhs edilmişdir. İslamın ilk addımlarında ona dəstək olan və ön sıralarında qərar tutub, cihad edən bu insan Allah dərgahında sevimli bəndələrdən və həqiqi möminlərdən hesab edilmişdir.

Şeyx Səduq Həzrət Peyğəmbərdən (s) nəql edir ki, Həzrət buyurub: "Biz, Əbdulmüttəlibin övladları, behişt əhlinin sərvərləriyik. Allahın Rəsulu (s), Həmzə Seyyidi-şühəda, Cəfər Zülcənaheyn, Əli (ə), Fatimə (s.ə.), Həsən (ə), Hüseyn (ə) və Məhdi (ə)". Başqa yerdə Peyğəmbər (s) buyurur: "Ən sevimli qardaşım Əli ibni Əbi Talibdir və ən sevimli əmim isə Həmzədir". İmam Sadiq (ə) Peyğəmbərdən (s) nəql edir: "Bir nəfər Peyğəmbərin (s) yanına gəlir və ərz edir: "Ey Allahın Rəsulu! Övladım olmuşdur, onun adını nə qoyum?" Buyurur: "Onun adını Həmzə qoy, bu mənim üçün ən sevimli addır". Peyğəmbərdən (s) nəql edilir ki, buyurmuşdur: "Qiyamət günü hamı piyada olacaqdır, dörd nəfərdən başqa." Abbas ibni Əbdulmüttəlib soruşur: "Ey Allahın

# Həmzə ibn Əbdulmüttəlib




Rəsulu! Bu dörd nəfər kimlərdir?" Buyurur: "Mən Meraca getdiyim ata minəcəyəm, əmim Həmzə ibni Əbdulmüttəlib Əsədullah dəvəyə minəcəkdir. Qardaşım Əli behişt dəvəsinə minəcəkdir".

İbni Həcər Əsqəlani nəql edir: "Peyğəmbər (s) Həmzənin cəsədinin yanında əyləşib xitab edir: "Ey əmi! Allah sənə rəhmət etsin. Sileyi-rəhmetməkdə və yaxşı işləri görməkdə fəal və səy göstərən idin". Peyğəmbər (s) bir cümlə ilə onun xüsusiyyətlərini sadalamaq istəyirdi. Başqa bir yerdə Peyğəmbər (s) buyurur: "Həqiqətən Qiyamət günü əmim Həmzə onu sevənlərdən cəhənnəmi uzaq edəcəkdir".

Mərhum Kuleyni İmam Əlidən (ə) nəql edir: "İmam Əli (ə) Bəsrədə Zubeyr ilə Təlhənin ordusuna qalib gəlir və o, Peyğəmbərin (s) dəvəsinə minmiş halda idi və insanlara xitab edir: "İstəyirsinizmi Qiyamət günündə ən yaxşı xəlq olmuşları sizə tanıdım?". Əbu Əyyub Ənsari deyir: "Ey Əmirəl-möminin tanıt. Çünki sən həmişə şahid olmusan, biz isə qayib". İmam Əli (ə) buyurur: "Qiyamət günü ən yaxşı insanlar Əbdulmüttəlibin yeddi övladlarıdır. Onları heç kim inkar etmir, kafirlərdən başqa". Əmmar deyir: "Ey Əmirəl-möminin onları adları ilə tanıt". Buyurur: "O gün ki, Allah insanları bir vadidə cəm edəcəkdir, onların ən yaxşısı Peyğəmbərlərdirlər və onların ən fəzilətlisi Həzrət Muhəmməddir (s). Peyğəmbərlərdən sonra ən yaxşı insanlar onların vəsisidirlər. Ona görə də ən yaxşı vəsi Həzrət Muhəmmədin (s) vəsisidir. Vəsilərdən sonra ən yaxşı insanlar şəhidlərdirlər. Şəhidlərin ən fəzilətlisi isə Həmzə ibni Əbdulmüttəlib və Cəfər ibni Əbu Talibdir. Onların iki rəngli qanadları vardır və bu iki qanad onlardan başqasına verilməmişdir. Allah onun vasitəsilə Muhəmmədə (s) kəramət və şərafət bəxş etdi. Peyğəmbərin (s) başqa iki sevimli insanı Həsən və Hüseyndir və biri də Məhdidir ki, bizim nəslimizdən seçiləcəkdir". Həzrət Əli (ə) bu bəyanı ilə Həzrət Həmzəni Qiyamət günü Peyğəmbər (s) Əmirəl-möminin (ə), Həzrət Həsən (ə) və Həzrət Hüseyn (ə) və Həzrət Məhdi (ə) ilə bir sırada qərar vermişdir. O, Həzrət Həmzəni Quranda adı çəkilən şəhidlərdən biri kimi bəyan etmişdir".

Bəli, bu böyük şəxsiyyət haqqında gələn hədislərin sayı çoxdur. Sadəcə onu demək olar ki, həyatında Allahdan başqa heç kimdən qorxmayan və Peyğəmbərə (s) ilk iman gətirən insanlardan biri olan Həzrət Həmzə həm Allahın sevimli bəndəsi olmuşdur, həm Peyğəmbərin (s), həm Əhli-Beytin (ə) və həm də biz müsəlmanların.

(Erfan)

# Şeyx Məhəmmədtəqi Behcət



## İrfanda parlayan günəş



***Möminlərin nəzərinə çatdırmaq istəyirik ki, Allah Taala hər zaman, elə bizim dövrümüzdə də bəzən bəndələrə xüsusi məhəbbət göstərir. "Hər kəs haqq yolunda sadiq olsa, Allah onu hidayət edər."***

Təkamül və insaniyyət yolu bəndələr üçün həmişə açıqdır. Əgər insan zəhmət çəksə, indiki zamanımızda da İmam Zamanın (ə) diqqəti sayəsində Allaha doğru gedən yolun sadiq yolçusuna çevrilər və kamil məqama çatar. Həqiqətən, bunlar bizə ümid verir və imanımızı təkamülə doğru sövq etdirir. Dediklərimiz əfsanə olmayıb, sübuta yetmiş eyni həqiqətlərdir. Bu həqiqətləri dərk edərək qəlblərimizi dünya bağlılıqlarından azad edə bilsək, mənəvi ləzzətlərin maddi ləzzətlərdən qat-qat üstün olduğunu daha yaxşı başa düşərik. Təəssüflər olsun ki, bir tərəfdən mərifət və iman zəifliyi, digər tərəfdən də batini və zahiri şeytani amillərin hücumu üstünlük təşkil etdiyinə görə belə qiymətli xalis incilərə az diqqət edilir. Burada biz o böyük şəxsiyyətlərdən biri ilə yaxından tanış olacağıq.

Böyük arif Həzrət Ayətullahül- üzma Şeyx Məhəmmədtəqi Behcət Fuməni 1913-cü ildə Gilan vilayətinin Fumən şəhərində dindar bir ailədə dünyaya göz açıb. Atası Kərbəlayı Mahmud Behcət şəhərin hörmətli və tanınmış şəxslərindən olub. O, əkinçilikdən əlavə, şəhər əhalisinə idarə işlərində də yardım edirmiş. Camaatın etimadını qazandığı üçün onun adı sənədlərdə zamin kimi qeyd olunur. Ədəbiyyat sahəsində gözəl zövqə malik olan Kərbəlayi Mahmudun yazdığı şeirlərdə Əhli-Beyt (ə), o cümlədən İmam Hüseynin (ə) və Kərbəla şəhidlərinin adı xüsusi vurğulanır. Aradan yarım əsr keçməsinə baxmayaraq, bu şerlər hələ də o diyarın xətib əhli və məddahlarının dillər əzbəridir.

Behcət bir il dörd aylığında ikən anası vəfat edir. Elə körpəlikdən yetim qalaraq çətinliklərlə üz-üzə duran Behcət bu ilahi imtahanda sınanmaq üçün enişli-yoxuşlu yollar keçməli olur.

### O, Məhəmmədtəqinin atasıdır

İlahi insanların haqq yola hidayət olunması və onların bu yolda təkamülə çatmasında Allah Taalanın gözəl və aşkar tədbiri vardır. Bu ibrətamiz gözəlliklərdən ariflər şeyxi Ayətullah Behcətin həyatında olduqca çoxdur. Onlardan biri atasının cavanlıqda başına gələn maraqlı əhvalatdır. Həmin əhvalat belədir: Behcətin atası təqribən on yeddi yaşında olarkən vəba xəstəliyinə yoluxub yatağa düşür. Vəziyyəti ağır olduğundan onun sağ qalacağına heç kimin ümidi qalmır. Behcətin atasının özü belə nəql edir: Həmin ağır vəziyyətdə olduğum vaxt, qəribə bir səs eşitdim. Kimsə deyirdi: "Onunla işiniz olmasın. O, Məhəmməd Təqinin atasıdır."

Elə bu vaxt dərin yuxuya gedir və hamı onun rəhmətə getdiyini güman edir. Amma bir müddət keçəndən sonra yavaş-yavaş tamamilə sağalır. Bu hadisədən bir neçə il sonra evlənmək qərarına gəlir və artıq o əhvalatı (xəstəlik) yadından çıxarır. Evləndikdən sonra ilk övladının adını Mehdi qoyur. İkinci övladı qız olur. Üçüncü uşağının adını Məhəmmədhüseyn qoyur. Dördüncü övladı dünyaya gələndə ağır xəstə olduğu vaxt eşitdiyi səsi xatırlayır və buna görə də onu Məhəmmədtəqi deyə çağırır. Amma Allah Taala onun bu övladı üçün qəribə alın yazısı yazıbmış. Bu uşaq elə körpə ikən su hovuzuna düşüb

boğulur. Allah ona başqa bir övlad da nəsib edir. O, bunun da adını Məhəmmədtəqi qoyur. İllər keçdikdən sonra həmin uşaq zamanımızın ariflər şeyxinə–Ayətullahül-üzma Şeyx Məhəmmədtəqi Behcətə çevrilir.

## Məhəmmədtəqi Behcətin təhsili

Ayətullah Behcət ibtidai təhsilini Fuməndə başa vurduqdan sonra, dini elmləri öyrənməyə başlayır. Elə uşaq yaşlarından böyük ruha malik olan Məhəmmədtəqi uşaq oyunları oynamaqdan çəkinərmiş. Təhsilə olan böyük marağı və istedadı bais olur ki, elə ilk günlərdən şəhərin ruhaniləri ilə get-gəli artsın.

1927-ci ildə ərəb ədəbiyyatını bitirdikdən sonra, hövzə elmlərini təkmilləşdirmək üçün hicrət etmək qərarına gəlir. Əvvəlcə Qum şəhərinə yollanır. O zamanlar hələ Qum elmi hövzəsi yaranmamışdı. Bir müddət bu şəhərdə qalandan sonra aşiqlər diyarı Kərbəlaya yollanır. Təqribən dörd il bu şəhərdə sakin olan Məhəmmədtəqi dini təhsil almaqla yanaşı nəfsinin islahı ilə də məşğul olur. O, bu diyarın böyük ustadlarından olan Şeyx Əbdül Qasim Xoyinin dərslərindən də səmərəli istifadə edir.

Təhsilini davam etdirmək və dini elmlərə daha dərindən yiyələnmək üçün 1931-ci ildə Nəcəf-Əşrəfə hicrət edir. Ali təhsilin son mərhələlərini Nəcəfin yüksək dərəcəli alimlərindən kəsb edərək başa vurur. Onların sırasında Şeyx Mürtəza Taliqani kimi tanınmış şəxslərin adı qeyd olunur.

Ayətullah Behcət Hacı Ziya Əraqi və Mirzə Naininin dərslərini bitirdikdən sonra Şeyx Məhəmməd Qərəvi İsfahaninin çox yüksək səthdə hövzə dərslərinə qatılır, ali fiqh və üsul nəzərlərini beləcə daha da təkmilləşdirir. O, həmin vaxtlar 20 yaşlı bir cavan olmasına baxmayaraq, yüksək qavrama qabiliyyətinə malik imiş. Keçilən hər dərsə tənqidi təhlil baxımdan yanaşma bacarığı onun çox tez bir zamanda elmi və mənəvi təkamülə çatacağından xəbər verirmiş. Nəcəf alimlərindən biri bu barədə belə deyir: “O, çox vaxt Ayətullah Kompaninin dərslərində bəhsə qatılır və yeri gələndə öz fikrini söyləməyi də çox yaxşı bacarırdı.”

O, eləcə də Seyyid Əbülhəsən İsfahani, Şeyx Məhəmməd Kazim Şirazidən dərs almış və həmçinin Ayətullah Milaninin “məkasib” dərslərində də iştirak etmişdir.

Ayətullah Behcət mərhum Seyyid Hüseyn Badkubinin yanında fiqh və üsul bəhslərini öyrənməklə yanaşı, İbn Sinanın “İşarat və Tənbihat” və Molla Sədranın “Əsfari ərbəə” kitablarını da mənimsəmişdir. O, bu dərslərlə məşğul olduğu zaman Nəcəfdə ali səthdə hövzə dərslərini tədris edirmiş. Behcət “kifayə” tədris edən təcrübəli müəllimlərdən hesab olunurmuş. Bütün bunlardan əlavə “Səfinətül-bihar” kitabının yazılmasında Abbas Qummi ilə həmkarlığı olubmuş. Hal-hazırda “Səfinətül-bihar”ın Behcət tərəfindən yazılmış əlyazma nüsxəsinin böyük bir hissəsi mövcuddur.

## Ayətullah Behcətin şəxsiyyətində müxtəlif cəhətlər

Yuxarıda qeyd etdiyimiz kimi Behcət elmi və mənəvi cəhətdən üstün olan böyük ustadlardan dərs almışdır. Bütün bunların onun hərtərəfli formalaşmasında əvəzsiz təsiri olmuşdur. Mənəviyyata daha çox ehtiyac duyulan bir zamanda Behcət kimi şəxsiyyətlər Allahın insanlara bəxş etdiyi böyük nemətlərdən sayılır. Onun bərəkətli ömrünün hər anından səmərəli istifadə edərək, belə gözəl nemətlərə görə Allaha həmd etməliyik.

“Allah Taala ona xas xüsusiyyət və zati istedad əta etmişdir. O fövqəladə iti zehnə malik bir insandır. İstər fərdi və ictimai, istərsə də siyasi məsələlərə özünəməxsus uzaqgörənliklə yanaşır. Elmi-ibadi işlərə qərq olan bir şəxsin belə dəqiq məsələlərə olan diqqəti və onu gözəl dərk etməsi, çoxlarına təəccüblü gəlir. Behcəti ibadət və ya tədris halında görən hər bir şəxs, onun siyasi-ictimai məsələlərə çox əhəmiyyət vermədiyini fikirləşər. Onu da qeyd edək ki, məni (Misbah Yəzdi) ictimai-siyasi məsələlərə əhəmiyyət verməyə təşviq edən şəxs Ayətullah Behcət olmuşdur. Tədris etdiyi vaxtlarda öz tələbələrinə bu haqda sifariş edib deyərdi: Elmi-mənəvi məsələlərə etiqadı olan hər bir şəxs siyasi-ictimai məsələlərə də ciddi yanaşmalıdır. Əks təqdirdə bir gün gələr cəmiyyətin siyasət işləri səriştəsiz insanların əlinə düşə bilər və islam cəmiyyətini azğınlığa sürükləyər. Hətta İmam Xomeyniyə də siyasi məsələlər barədə xüsusi sifarişlər edərdi. Bir dəfə də İmam Xomeyniyə göndərəcəyi belə sifarişlərdən birini çatdırmağı dostlardan biri ilə mənə tapşırmışdı.”

## Şeyx Mürtəza Taliqanini yad edərkən

Ayətullah Behcətin bəhrə aldığı ustadlardan biri də Şeyx Mürtəza Taliqani olmuşdur. Burada bu böyük alimin həyatından qısa məlumat verməklə kifayətlənirik.

İlahi arif Şeyx Mürtəza Taliqani Nəcəfi 1847-ci ildə Taliqan şəhərinin Dizan kəndində dünyaya göz açmışdır. Yazıb-oxumağı doğulduğu kənddə öyrəndikdən sonra “müqəddəmat” dərslərinin təhsilinə başlayır. Tehrana hicrət edəndən sonra “müqəddəmat və səth” dərslərini orada başa vurur. Əqli dərsləri–yəni fəlsəfəni Tehranda oxumağa başlayan Şeyx Taliqani bu elmlərə daha dərindən yiyələnmək üçün iki böyük alim, arif Axund Molla Məhəmməd Kaşi və Cahangirxan Qaşqayinin dərslərinə qatılır. O fiqh elmini öyrənmək üçün dövrünün böyük ustadlarından, o cümlədən Nəcəfi Məscidşahi İsfahani, Seyyid Məhəmməd Baqir Dərəçeyi, Əllamə Gəzi və Şeyx Mürtəza Dizi İsfahanidən dərs almışdır.

1880-cı ildə Nəcəf-Əşrəfə hicrət edən Şeyx Mürtəza Taliqani, Mühəqqiq Xorasani, “Ürvətül-vüsqa” kitabının müəllifi və Nəcəfin digər böyük ustadlarından istifadə edərək “ictihad” məqamına çatır.

İlahi arif Şeyx Mürtəza Taliqani zamanın böyük övliyalarından hesab olunurdu. O, nafilə və müstəhəb əməllərə çox dəqiq fikir verər və Allah zikrini yaddan çıxarmazdı. Bu böyük alim, adətən təkliyi sevər və başqaları ilə çox da get-gəl etməzdi. Nəcəfdə tədrislə məşğul olan Şeyx Taliqani Həzrət Əlinin (ə) hərəmi, mədrəsə və bəzi zəruri yerlərdən başqa bir yerə getmirdi. Dərslərində ondan kömək istəyən hər bir tələbəyə öz köməyini əsirgəməz və ibtidai dərslərdən tutmuş ali səthə qədər bütün səviyyələrdə tədris edərdi. Yazdığı məktubların sonunda vurduğu möhürün üzərinə bu cümlə həkk olunmuşdu: “Allahummə nəcci Murtəza minən-nar” (İlahi, Mürtəzaya cəhənnəm atəşindən nicat ver.)



# Təmizlik haqda 40 kəlam

***1-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Həqiqətən Allah pakdır və pak olanları da sevir."***

2-İmam Rza (ə) buyurmuşdur: "Peyğəmbərlərin əxlaqından biri də paklıqdır."

3-İmam Əli (ə) buyurur: "Peyğəmbər (s) saçını darayır, çox vaxtlar onu su ilə düzəldir və buyururdu: Su mömini ətirli etmək üçün kifayətdir."

4-İmam Sadiq (ə) buyurmuşdur: "Saçı daramaq ruzini artırır, hacətin qəbul olunmasına səbəb olur və bəlğəmi aradan aparır."

5-İmam Sadiq (ə) buyurmuşdur: "Peyğəmbər (s) saqqalını aşağıdan yuxarı qırx dəfə, yuxarıdan aşağı isə yeddi dəfə darayır və buyururdu: Saçı daramaq insanın ağlını artırır."

6-İmam Sadiq (ə) buyurur: "Peyğəmbər (s) buyurmuşdur: Dodaqlar aşkar olunana qədər bığın artıqlarını qırxmaq sünnədir."

7-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Atəşpərəstlər və zərdüştilər saqqalını qırxır, bığını uzadırlar, biz isə bığımızı qırxıb, saqqalımızı saxlayırıq."

8-İmam Sadiq (ə) buyurmuşdur: "Dırnaqları tutmaq mənim sünnəmdir." Dırnaqları cümə axşamı, yaxud cümə günü tutmaq, eləcə də onları tutanda sol əlin kiçik barmağından başlayıb, sağ əlin kiçik barmağında qurtarmaq müstəhəbdir.

9-İmam Sadiq (ə) buyurmuşdur: "Hər on beş gündən bir bədəndəki artıq tükləri qırxmaq sünnədir."

10-İmam Sadiq (ə) buyurmuşdur: "Üç əməl peyğəmbərlərin əxlaqından sayılır: Ətir vurmaq, başın tükünü ülgüclə qırxmaq, bədənin tüklərini nurə ilə təmizləmək."

11-İmam Sadiq (ə) buyurmuşdur: "Peyğəmbər (s)-in ətirə verdiyi pul yeməyə (meyvəyə) xərclədiyi puldan çox idi." (O həzrətin istifadə etdiyi ətir müşk idi.)

12-İmam Əli (ə) buyurmuşdur: "Peyğəmbər (s) (hədiyyə olunan) ətir və halvanı geri qaytarmırdı."

13-Peyğəmbər (s) saçlarına yağ sürtməyi sevir və buyururdu: "Saça yağ sürtmək qəm-qüssəni aradan aparır."

14-Peyğəmbər (s)-in başı ağrıyanda qaşlarına və bığına yağ sürtərdi.

15-Peyğəmbər (s) yeddi şeyi torpağa basdırmağı göstəriş vermişdir: "1-Tükü. 2-Dırnağı. 3-Heyz qanına bulaşmış parçanı. 4-Cifti. 5-Dişi. 6-Qanı. 7-Ələqəni (rüşeymin siqt olduğu zaman qadından gələn qanı)."

16-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurur: Cəbrail mənə dedi: "Bir gündən bir özünə ətir vur, cümə günü isə ətir vurmağı tərk etmə."

17-İmam Kazım (ə) buyurmuşdur: "Bədənin on yerində təmizlik etmək lazımdır: Onun beşi başa, beşi də bədənə aiddir:

a) Baş hissəyə aid olan təmizlik: 1-Dişləri fırça ilə yumaq. 2-Bığın uclarını qısaltmaq. 3-Saçı yumaq. 4-Məzməzə (ağıza su alıb qar-qara) etmək. 5-İstinşaq etmək (buruna su alıb təmizləmək).

b) Bədənə aid olan təmizlik: 1-Sünnət etmək. 2-Qarının altdakı tükləri qırxmaq. 3-Qoltuqda bitən tükləri qırxmaq. 4-Dırnaqları tutmaq. 5-İstibra etmək."

18-İmam Sadiq (ə) buyurmuşdur: "Dişləri fırça ilə yumaq sünnədir və onun on bir xüsusiyyəti vardır:

a) Ağızı təmizləyir.
b) Gözü işıqlandırır və ona nur verir.
v) Allahın razılığına səbəb olur.
q) Dişləri ağardır.
d) Ağızın pis qoxusunu aparır.
s) Dişlərin ətini möhkəmlədir.
h) İştahanı artırır.
x) Bəlğəmi aradan aparır.

ç) Zehni gücləndirir.

p) Savabları ikiqat artırır.

r) Mələklərin xoşhal olmasına səbəb olur."

19-Peyğəmbər (s) səfərə gedəndə, həmişə beş şeyi özü ilə apardı: 1-Güzgü. 2-Sürmə. 3-Misvak. 4-Daraq. 5-(Namaz qılmaq üçün) Səccadə.

20-Peyğəmbər (s)-in paltarlarının çoxu ağ rəngli idi. O həzrət belə buyururdu: "Ağ paltar geyinin, ölən şəxslərə də ağ kəfən geyindirin."

21-Ayaq yoluna gedəndə başı örtmək və istibra etmək müstəhəbdir.

22-İmam Kazim (ə) buyurmuşdur: "Cümə günündə başı sidrlə qarışmış su ilə yumaq sünnədir; bu, ruzini artırır, bədənin tükünü və dərisini gözəlləşdirir və baş ağrısının qarşısını alır."

23-İmam Sadiq (ə) buyurmuşdur: "Həcamət etmək (bədəndən qan almaq), bədənin tüklərini nurə ilə təmizləmək, (asqırmaq məqsədilə) burunotu iyləmək peyğəmbərlərin dərmanı idi."

24-İmam Əli (ə) buyurmuşdur: "Dişləri fırça ilə yumaq sünnədir, bu, Allahın razılığına səbəb olur və ağzı xoş iyli edir."

25-Həzrət Peyğəmbər (s) hər namaz üçün dəstəmaz alıb buyururdu: "Dəstəmaz nurdur, dəstəmazın üstündən dəstəmaz almaq nur üstündən əlavə nurdur."

26-İmam Əli (ə) bayramlarda qüsl etməyi Peyğəmbər (s)-in sünnəsinə əməl etmək və hacətlərin qəbul olunması üçün paklıq vəsiləsi hesab edirdi.

27-Həzrət Peyğəmbər (s) mübarək Ramazan ayının axırlarında etikaf saxladığı günlərdə hər gecə şam və işa namazları arasında qüsl verirdi.

28-İmam Əli (ə) həzrət Peyğəmbər (s)-in belə buyurduğunu nəql etmişdir: "Qüsl verəndə Cəbrail mənə barmağımda olan üzüyü hərəkət etdirməyi və göbəyimin içini yumağı göstəriş verdi."

29-İmam Əli (ə) buyurmuşdur: "Evlərin ən yaxşısı hamamdır; çünki orada cəhənnəm odu insanın yadına düşür və bədəni pak-pakizə olur."

30-Hər kəs bədəni örtülü halda hamama daxil olsa, Allah-taala onu öz örtüyü ilə örtər.

31-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Ey Aişə! Paltarları yu; çünki paltar Allaha zikr deyir və çirkli olduqda, artıq zikr demir."

32-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Paltarlarınızı yuyun, bədənizdəki artıq tükləri təmizləyin, dişlərinizi fırça ilə yuyun, paklıq və nəzafətə riayət edin. Çünki Bəni İsrail qövmünün kişiləri çirkli qiyafədə yaşayırdılar. Bu səbəbdən də onların arvadları ismət paltarlarını yırtıb zina edirdilər." ("Nəhcül-fəsahə", səh. 72)

33-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Dişləri fırça ilə yumaq dəstəmazın bir hissəsi, dəstəmaz da imanın bir hissəsidir."

34-İmam Sadiq (ə) buyurmuşdur: "Ətirə nə qədər pul xərcləsəniz də, israf sayılmır."

35-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Həqiqətən, Allah-taala ibadət edən pak insanı çox sevir."

36-İmam Əli (ə) buyurmuşdur: "Başqalarının əziyyətə düşməsinə səbəb olan bədən qoxusunu su ilə yuyub pak edin."

37-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Allahın ən pis bəndəsi çirkli şəxsdir."

38-İmam Əli (ə) buyurmuşdur: "Təmiz paltar qəm-qüssəni aradan aparır və namazın pak halda qılınmasına səbəb olur."

39-Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Cəbrail mənə misvak vurmaq haqqında o qədər tövsiyə etdi ki, onun vacib olmasını güman etdim."

40-İmam Sadiq (ə) dua edərək demişdir: "İlahi! Çirkinlikləri və aludəlikləri məndən uzaq et, bədənimi və qəlbimi pak-pakizə qərar ver."



# KROSSVORD

**Aşağı**
1) Zülcənah
2) Ev
4) Peyğəmbər
5) Əhval
7) Fatimeyi Zəhranın (s.ə) ləqəbi
10) Çörək
11) Sur çalan mələk
13) Bağlayıcı
14) Kəsici

**Eninə**
1) Üsyankar
3) Tanrı
6) Zülf
8) Cüyür ce....
9) 2-ci imam
12) Rəsul
13) Böyük




**Aşağı**
1) 9-cu imam
3) 10-cu imam
4) Əşya
5) Futbol oyunu (türk)
6) Tənha
8) İmam Əliyyən ..... (ə)
9) 5-ci imam
10) 6-cı imam

**Eninə**
2) Allahın aslanı
3) Heyvan adı ilə adlanan surə
4) Əhali
7) Sadə
8) Cənnət meyvəsi

*Krosvordda ərəbcə Fatimeyi Zəhra (s.ə) yazılmışdır*



# İMAN

www.iman.ge www.imanmedia.ge

## AZAN VAXTLARI

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 5:21 | 6:45 | 13:05 | 19:25 | 19:42 | 00:31 |
| 02 | 5:19 | 6:43 | 13:04 | 19:26 | 19:44 | 00:30 |
| 03 | 5:17 | 6:41 | 13:04 | 19:28 | 19:45 | 00:30 |
| 04 | 5:15 | 6:40 | 13:04 | 19:29 | 19:46 | 00:30 |
| 05 | 5:13 | 6:38 | 13:04 | 19:30 | 19:47 | 00:29 |
| 06 | 5:11 | 6:36 | 13:03 | 19:31 | 19:48 | 00:29 |
| 07 | 5:09 | 6:35 | 13:03 | 19:32 | 19:49 | 00:28 |
| 08 | 5:07 | 6:33 | 13:03 | 19:33 | 19:50 | 00:28 |
| 09 | 5:06 | 6:31 | 13:02 | 19:34 | 19:51 | 00:28 |
| 10 | 5:04 | 6:30 | 13:02 | 19:35 | 19:53 | 00:27 |
| 11 | 5:02 | 6:28 | 13:02 | 19:36 | 19:54 | 00:27 |
| 12 | 5:00 | 6:27 | 13:01 | 19:37 | 19:55 | 00:26 |
| 13 | 4:58 | 6:25 | 13:01 | 19:38 | 19:56 | 00:26 |
| 14 | 4:56 | 6:23 | 13:01 | 19:40 | 19:57 | 00:26 |
| 15 | 4:54 | 6:22 | 13:01 | 19:41 | 19:58 | 00:25 |
| 16 | 4:52 | 6:20 | 13:00 | 19:42 | 19:59 | 00:25 |
| 17 | 4:50 | 6:19 | 13:00 | 19:43 | 20:01 | 00:25 |
| 18 | 4:48 | 6:17 | 13:00 | 19:44 | 20:02 | 00:24 |
| 19 | 4:47 | 6:16 | 13:00 | 19:45 | 20:03 | 00:24 |
| 20 | 4:45 | 6:14 | 13:00 | 19:46 | 20:04 | 00:23 |
| 21 | 4:43 | 6:13 | 13:00 | 19:47 | 20:05 | 00:23 |
| 22 | 4:41 | 6:11 | 12:59 | 19:48 | 20:06 | 00:23 |
| 23 | 4:39 | 6:10 | 12:59 | 19:49 | 20:07 | 00:22 |
| 24 | 4:37 | 6:08 | 12:59 | 19:51 | 20:09 | 00:22 |
| 25 | 4:35 | 6:07 | 12:59 | 19:52 | 20:10 | 00:22 |
| 26 | 4:34 | 6:05 | 12:59 | 19:53 | 20:11 | 00:21 |
| 27 | 4:32 | 6:04 | 12:58 | 19:54 | 20:12 | 00:21 |
| 28 | 4:30 | 6:02 | 12:58 | 19:55 | 20:13 | 00:21 |
| 29 | 4:28 | 6:01 | 12:58 | 19:56 | 20:14 | 00:20 |
| 30 | 4:26 | 6:00 | 12:58 | 19:57 | 20:15 | 00:20 |

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Tel: (822) 23 39 87*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*